بسم الله الرحمن الرحيم

Tbilisi-2017

**Kitabın orijinal adı:** **İmam Ceferi-Sadık**
**Müəllif:** Osman Nuri Topbaş
**Nəşrə hazırlayan:** Hacı BƏKİROĞLU
**Anadolu türkcəsindən Azərbaycan türkcəsinə uyğunlaşdıran:** Nurlan MƏMMƏDZADƏ
**Dizayn:** Elsevər Əhmədov

**Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin elmi şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.**

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაციით

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

Esma Oniani st, Tbilisi, Georgia ,#23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E_mail: info.amag77@gmail.com

სამართლიანი მეგობრებისგან სიბრძნეები

*Haqq Dostlarından Hikmətlər*

# İmam
# Cəfər Sadiq

# იმამ
# ჯაფერ სადიყი

# HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

## Cəfər Sadiq (q.s) -1-

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Allah-Təala bu üç şeyi üç şeydə gizlətmişdir:***

***1) Rizasını itaətində gizlətmişdir. Bu səbəblə Onun itaətindən heç nəyi kiçik görməyin.***

***2) Qəzəbini günahlarda gizlətmişdir. Ona görə heç bir günahı kiçik görməyin; bəlkə qəzəbi ondadır.***

***3) Övliyasını mömin qulları arasında gizlətmişdir. Bu səbəblə möminlərdən heç kimi xor görməyin; bəlkə o, Allah-Təalanın vəli quludur".***[1]

1. Əbu Talib Məkki, *Qutul-Qulub,* I, 347; Qəzzali, *İhya,* IV, 49.

**Sonra Cəfər Sadiq həzrətləri bunu əlavə edir:**

***"Duanın qəbulunu da Özünə edilən dualarda gizlətdi. Onun üçün duanı tərk etməyin; bəlkə qəbulu o duadadır."***[2]

Allahın rizası bəzən böyük, bəzən orta, bəzən də kiçik bir şeydə gizlidir. Ona görə də mömin böyük-kiçik ayrı-seçkiliyi etmədən bütün saleh əməlləri fürsət bilməli və bu fürsəti qaçırmamalıdır.

**Həzrət Əbu Bəkr** ﷺ xəlifə olmamışdan əvvəl evinə yaxın olan yetim qızların qoyunlarını sağar, ehtiyaclarını təmin etməyə çalışardı. Müsəlmanların xəlifəsi olduğu zaman artıq həyat şərtlərinin dəyişəcəyi və bu kimi kiçik görünən xidmətlərə vaxt ayıra bilməyəcəyini fikirləşirdilər. Lakin heç nə dəyişmədi. Həzrət Əbu Bəkr ﷺ özü üçün böyük bir lütf bildiyi bu xidməti də əvvəlki təvazökarlıqla ifa etməyə davam etdi.[3]

Çünki Allah-Təalanın işlənən hansı saleh əməl hörmətinə qulunu sevib

2. Qəzzali, *İhya*, IV, 49.
3. Bax. Süyuti, *Tarihu'l-Hulefa,* s. 80; Sarıçam, *Hz. Ebu Bekir,* s. 82.

ondan razı olacağı yalnız Özünə məlumdur. Bu həqiqətin əksi olaraq: Allah-Təalanın qəzəbi də bəzən böyük, bəzən orta, bəzən də kiçik bir günahda təcəlli edə bilər. Bunun idrakı içində olan arif insanlara ən kiçik günahlar belə dağlar qədər ağır gələr. Qafillərə isə ən ağır günahlar belə sanki xoş musiqi kimi yüngül gələr. Onlar içinə düşdükləri səfaləti səadət zənn edəcək qədər qəflət sərxoşluğu içində ömür sürərlər.

Əshabi-kiramdan **Abdullah ibn Məsud** ﵁ belə deyir:

*"Mömin işlədiyi günahı altında oturduğu və sanki hər an üstünə düşmə təhlükəsi olan bir dağ kimi görər. "Bu nəhəng dağ üstümə düşərmi",- deyə təlaşlanar. Günahkar isə işlədiyi günahı burnunun üstündən uçan milçək kimi görər".* (Buxari, Dəavat 4; Müslim, Tövbə 3)

Ona görə də mömin günahlar xüsusunda da, savablar xüsusunda da böyük-kiçik demədən, lazımi həssaslığı göstərməli, bütün bunların imtahan olduğunu daim göz önündə tutmalıdır. Bütün məsələləri iman fərasəti ilə dəyərləndir-

məli, hər an həssas qəlblə Haqqa qulluq etməlidir.

Bu baxımdan "hər gördüyünü Xızır, hər gecəni Qədr bilmək" düsturunu heç vaxt yadından çıxarmamalıdır. Zira insanların Allah qatındakı dəyərini Allahdan başqa heç kim bilməz. Haqq-Təala qiymət və üstünlüyü "təqva" şərtinə bağlamışdır. Təqva isə qəlbdədir. Qəlbin pəncərələri yalnız Allaha açıqdır. İnsanların qəlbindən keçənləri bilmək mümkün olmadığı üçün Haqq qatında kimin daha üstün olduğu da məlum deyil. Ona görə də Allahın qullarını xor görmək dolayı yolla özünü digərlərindən üstün saymaq mənasına gəlir ki, bu hal əsla İslam əxlaqına uyğun deyil. Allah-Təala qullarını bu haldan çəkindirmək üçün belə buyurur:

**"**(Dalda) **qeybət edib** (üzdə) **tənə vuran hər kəsin vay halına!"** (əl-Huməzə, 1)

**Rəsulullahın** ﷺ bu bəyanları da bəhs etdiyimiz mövzuda mühüm ölçü mahiyyətindədir:

*"Saç-saqqalı bir-birinə qarışmış, nimdaş libaslı heç kimin etibar etmədiyi elə adamlar*

*var ki, Allaha and içsələr, Allah andlarını boşa çıxarmaz".* (Tirmizi, Mənaqib, 54/3854)

*"Sizə cənnətliklərin kim olduğunu bildirimmi? Onlar həm zəif olduqları, həm də camaat tərəfindən zəif göründükləri üçün heç kimin əhəmiyyət vermədiyi, lakin "belə olacaq" deyə and içsələr, arzularını Allahın həyata keçirəcəyi kəslərdir…"* (Buxari, Eyman 9, Təfsir 68/1, Ədəb 61; Müslim, Cənnət, 47)

Deməli, müsəlmanın vəzifəsi -kimliyindən asılı olmayaraq- Allaın qullarına qarşı hüsnü-zənn bəsləmək, ədəbli olmaq və gözəl rəftar etməkdir.

Digər tərəfdən, Quran və Sünnədə xəbər verilənlər başda olmaqla imkan nisbətində davamlı dua etməyə çalışmalıyıq. Çünki hansı duanın xilasımıza səbəb olacağı və ya kimin duası hörmətinə ilahi nemətə nail ola biləcəyimiz də məchuldur.

**Cəfər Sadiq həzrətlərindən:**

**"– Bizə nə oldu ki, dua edirik, amma duamız qəbul edilmir?",- deyə soruşduqda bu cavabı verir:**

***"– Çünki siz tanımadığınız bir Zata dua edirsiniz!"***[4]

Mömin Rəbbinin qüdrət və əzəmətini təfəkkür etdikcə, **mərifətullah**dan nəsib almağa başlayar. Mərifətullah isə Allahı qəlbən və yəqinən tanımaqdır. İbadətlərin Haqq qatında məqbul olma dərəcəsi də qulun mərifətullahdan aldığı pay nisbətindədir. Necə ki, ayeyi-kərimədə buyurulur:

**"…Heç bilənlərlə bilməyənlər bir olarmı?.."** (əz-Zumər, 9) Buradakı "bilmək" ifadəsiylə nəzərdə tutulan xüsus Allahı bilmək, yəni mərifətullahdır.

Həmçinin bəndə Rəbbini nə qədər tanıya bilərsə, dua və yalvarışlarını da o nisbətdə artırar. Qulun Rəbbinə yaxınlığının və Haqq qatındakı qiymətinin təməlində də ixlas və səmimiyyətlə ifa

4. Quşeyri, *ər-Risalə,* II, 424-425; Hani, *əl-Hədaiq,* s. 130.

etdiyi ibadət və duaları yatır. Başqa bir ayeyi-kərimədə belə buyurulur:

"(Rəsulum!) De ki: (Əgər qulluq və) **duanız olmasa, Rəbbim sizə necə qiymət versin?!**" (əl-Furqan, 77)

Ona görə də arif olan möminlər həyatın pis-yaxşı anlarında daim dua halında yaşayarlar. Duadan uzaq qalmaq qulun Haqdan uzaqlığına işarədir. Əslində bütün günah və üsyanların təməlində də mərifətullahdan məhrumiyyət, yəni Haqq-Təalanı layiqincə tanıya bilməmək nöqsanı yer alır.

**Qasım bin Məhəmməd həzrətləri** bir nəfərin:

"- Filankəs Allaha qarşı nə qədər də cürətlidir!",- dediyini eşitdikdə, ona bu xəbərdarlığı etmişdir:

"- Allaha qarşı cürətli olmaq Adəm oğlunun həddi deyil! Ancaq onun haqqında: "- Allahı nə qədər də az tanıyır!",- deyə bilərsən."[5]

Ona görə də Haqqı tanıyan bir mömin Ona heçlik, yoxluq və acizlik duyğuları

5. İbn Asakir, *Tarixu Diməşq,* c. 49, s. 180.

içində dua etməyi özü üçün zəruri bir qulluq ədəbi bilər.

**Həsən Bəsri həzrətləri** buyurur:

*"Dualarınızın qəbul olunmamasından qorxmuram, sizin dua edə bilməyəcək hala gəlməyinizdən qorxuram…"*

Qəbul olunmadığı zənniylə duanı tərk etmək şeytanın tələsinə düşməkdir. Mömin özünün açıq-aşkar düşməni olan şeytana qarşı dua silahını əsla əlindən yerə qoymamalı, könlündən daşan səmimi duaları dilindən salmamalıdır.

Dua Rəbbimizin əmri olduğu üçün əhəmiyyətli bir ibadət hökmündədir. Hətta bir hədisi-şərifdə belə buyurulmuşdur:

*"Dua ibadətdir. İbadətin iliyi və canıdır. Allah qatında heç nə Ona dua etməkdən daha qiymətli ola bilməz. Allah Özündən heç nə istəməyəni (dua etməyi özünə sığışdırmayanı) əzaba düçar edər. Çətinlik və qıtlıq zamanında duasının qəbul olmasını istəyən kəs bolluq və rahatlıq zamanında da duanı çox etsin. Rəbbiniz Hayy və Kərimdir; bir bəndə əlini açdığı zaman onu boş qoymaz. Kimin*

*ki, üzünə dua qapıları açılmışdır, deməli, ona hikmət qapıları açılmışdır. Dua rəhmət qapılarının açarı, mömінin silahı, dinin dirəyi, göylərin və yer üzünün nurudur".* (Rudani, Cəmul-Fəvaid, 9219-20-21-22-25)

Bu nöqteyi-nəzərdən dua qəbul edilsə də, edilməsə də hər halda mömin üçün faydalıdır. Çünki bəzi dualar qəbul edilərək bəndə hələ həyatda ikən muradına çatmasına vəsilə olar. Bəzi dualara isə bir çox hikmətə görə qarşılıq verilməz. Belə duaların qarşılığı isə axirətə təxir edilərək, qulun uxrəvi mükafatlara çatmasına vəsilə olar.

Ayeyi-kərimələrdə buyurulur:

**"**(Ya Rəsulum!) **Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən** (onlara) **yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm..."** (əl-Bəqərə, 186)

**"Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar Cəhənnəmə zəlil olaraq girəcəklər!"** (əl-Ğafir, 60)

Xülasə, möminin vəzifəsi Rəbbimizin əmrinə tabe olaraq duaya möhkəm sarılmaqdır. Xüsusilə də Rəbbimizin qəbuluna ən yaxın zaman olan səhərləri dua, istiğfar və zikrdən məhrum qalaraq keçirməməkdir.

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Bəndələrin ən xeyirlisi bu beş xislətin cəm olduğu kimsədir:***

***1) Yaxşılıq edəndə sevinər.***

***2) Səhv hərəkətinə görə istiğfar edər.***

***3) Nemət verildiyi zaman şükür edər.***

***4) Bəlaya düçar olduqda səbir edər.***

***5) Haqsızlığa düçar olduqda əvf edər."***[6]

**Cəfər Sadiq həzrətləri** bu hikmətli nəsihətiylə kamil möminin əlamətdar xüsusiyyətlərinə diqqət çəkir. Bu tərifə görə bir mömin yaxşılıq etməkdən tərifi imkansız bir ləzzət alar və saleh əməllər işləməyi böyük bir səadət səbəbi bilər. Səhvə yol verdikdə isə dərhal tövbə edər, əsla səhvində israr etməz. Əksinə, xəta-

6. İbn Şəmsul-Xilafə, *əl-Adabün-Nafia*, s. 14.

da israr etməyin şeytani xislət olduğunu bilər. Bu səbəbdən səmimi peşmanlıqla qəlbində səhvini düzəltməyə çalışar.

Bunun yolu isə hədisi-şərifdə belə göstərilir:

*"Harada olursan ol, Allahdan qorx və etdiyin pisliyin ardından dərhal bir yaxşılıq et, bu onu yox edər. İnsanlara gözəl əxlaq ilə rəftar et!"* (Tirmizi, Birr, 55/1987)

Həmçinin kamil bir mömin Rəbbinin özü haqqındakı təqdirini, öz arzusundan daha qiymətli görər. Haqdan gələn acı və şirin təcəllilər daim həmd, şükür və riza halı ilə qarşılayar. Əslində bu hal elə qəlbi hüzurun da ilk şərtidir. Necə ki, möminin bu xüsusiyyətini **Rəsulullah** ﷺ belə ifadə edir:

*"Həqiqətən möminin vəziyyəti qibtə edilməyə və heyran olmağa dəyər. Çünki hər halı onun üçün bir xeyir vəsiləsidir. Belə bir xüsusiyyət yalnız mömində var: Mömin sevinsə şükür edər, bu onun üçün xeyir olar. Başına bir bəla gəlsə səbir edər, bu da onun üçün xeyir olar".* (Müslim, Zöhd, 64)

Yəni mömin həyat imtahanında qarşılaşdığı -xeyir və ya şər- bütün təcəllilərdən, uxrəvi cəhətdən qazanclı çıxmağın səyi içində olmalıdır. Bu səbəblə də şəxsinə qarşı edilən pislikləri və qüsurları Allah üçün xoş görməli, Allahın qullarını bağışlaya-bağışlaya ilahi əfvə layiq hala gəlməyə çalışmalıdır.

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Xeyir əməllər yalnız bu üç xüsusla kamillik qazanar:***

***1) Qərar verilən kimi, səhlənkarlıq etməyib dərhal əda edildikdə,***

***2) Edilən əməli kiçik sayıb mənlikdən uzaq qalmaqla,***

***3) Riyadan qorunmaq üçün gizlində ifa edilməsiylə!"***[7]

Xeyirli işlərdə tələsmək lazımdır. Çünki Allahın razı olduğu bir işdə ləng hərəkət edilər və səhlənkarlıq göstərilərsə, araya bir çox maneə girər. Nəfs və şeytan da insanı o xeyirli düşüncədən yayındırmaq üçün dayanmadan çalı-

7. Əbu Nuaym, *Hilyə*, III, 198.

şar. O işdən uzaqlaşdıra bilmədikdə, bu dəfə onun içini boşaldıb əcrini zay etmək məqsədilə riya, təkəbbür və özünü bəyənmə kimi nəfsani məqsədlərlə bulandırmağa çalışarlar.

Saleh əməllərin ən böyük düşməni təkəbbür, lovğalıq və riyakarlıqdır. Bunlardan qorunmaq üçün görülən xeyir işi gizli saxlamaq lazımdır. Məcbur qalaraq aşkar şəkildə ifa edilən xeyirlərdə isə qəlbi qoruyub ixlası zədələməmək lazımdır. Həmçinin görülən xeyir iş nə qədər böyük də olsa, hər zaman onu az və qeyri-kafi görmək də təkəbbür, lovğalıq və özünü bəyənmədən qoruyan fəzilətdir.

Necə ki ariflər "iki şeyi unut" demişlər:

1) Etdiyin xeyir-həsənatı unut ki, təkəbbür, lovğalıq və özünü bəyənməyə səbəb olmasın.

2) Sənə edilən pislikləri unut ki, ürəyində kin və ehtiras toxumları baş qaldırmasın.

Bunun müqabilində "iki şeyi də unutma" buyurmuşlar:

1) Etdiyin xəta və qüsurları unutma ki, tövbə və istiğfarla məşğul olub nəfsinin qabarmasına mane olasan.

2) Sənə edilən yaxşılıqları unutma ki, vəfasız və nankor olmayasan.

Xülasə, bəndə əbədiyyət səfərində ən qiymətli azuqəsini məhv etməməsi üçün saleh əməllərinin üzərinə titrəməlidir. İxlas sirrinə böyük həssaslıqla riayət etmək lazımdır. Əks halda bir tərəfdən doldurmağa çalışdığı heybəsini, digər tərəfindən boşaldar. Beləliklə də ilahi hüzura əliboş getdiyindən xəbəri olmaz.

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Dostluq/yoldaşlıq yalnız özünəxas ölçülərlə gerçəkləşir. Kimdə bu xislətlərdən birini və ya bir neçəsini görsən, bunu əsl dostluğun əlaməti qəbul et:***

***• Dostluq ölçülərinin ilki qeyd-siz-şərtsiz (şəxsi mənfəət güdməkdən uzaq) sənə qarşı səmimi olmasıdır.***

***• İkincisi, sənin çətin vəziyyətə düşməyini öz dərdi olaraq görməsi, sənin***

***yaxşılıq və gözəlliyini də öz yaxşılığı olaraq görməsidir.***

***• Üçüncüsü, mal və sahib olduğu məqamın onu (yəni mütəvazi halını) dəyişməməsidir.***

***• Dördüncüsü, imkanı daxilində olan heç nəyi səndən qısqanmamasıdır.***

***• Beşincisi isə bütün bu xislətlərin hər birini özündə toplayar ki, o da fəlakət əsnasında səni tərk etməməsidir."***[8]

Yaşadığımız axırzamanda çox adam mənfəət dostudur. Ona görə də dostluq sınağından keçməyib çətinliklərlə yoxlanmadığı üçün şəxsiyyət və xarakterini bilmədiyimiz adamların dostluq iddialarına aldanmamaq lazımdır. Bu barədə **Həzrət Ömərin** ﷺ qoyduğu ölçüləri yaddan çıxarmamalıyıq:

*"Bir adamın qıldığı namaza, tutduğu oruca baxmayın.*

*• Danışanda düz danışdığına,*

*• Nə isə əmanət edildiyi zaman əmanətə riayət edib-etməməsinə,*

8. Safədi, *əl-Vafi bil-Vəfəyat,* Beyrut 1420, XI, 100.

• *Dünya ilə məşğul olarkən halal-harama diqqət edib-etməməsinə baxın.*[9]

Bir nəfər Həzrət Ömərin yanında başqa birini tərifləyirdi. Həzrət Ömər ondan soruşdu:

"- Təriflədiyin adamla yol yoldaşı olmusanmı?". Həmin adam:

"- Xeyr",- dedi.

"- Ticarət kimi hansısa bir fəaliyyətiniz olubmu?".

"- Xeyr".

"- Yaxşı, səhər-axşam onunla qonşu oldunmu?".

"- Xeyr".

Bütün "xeyr" cavablarından sonra Həzrət Ömər رضي الله عنه belə dedi:

"- Ondan başqa heç bir ilah olmayan Allaha and içərəm ki, sən onu tanımırsan!".

Deməli, bir adam haqqında onun əsl kimliyini ortaya çıxaracaq olan bəzi müa-

9. Beyhəqi, *əs-Sünənul-Kübra,* VI, 288; *Şuab*, IV, 230, 326.

milələrlə sınaqdan keçirmədən hökm verməmək lazımdır. Dost seçimində bu məsələ son dərəcə mühümdür.

Allah üçün sevəcək, Allah üçün tövsiyə edəcək, Allah üçün himayə edəcək və çətin günündə Allah rizası üçün əlindən tutacaq gerçək bir dosta sahib olan insan dünyanın ən qiymətli sərvətinə sahibdir.

Əsl dost "yar olar, bar olmaz", yəni dostuna yük olmadığı kimi, onun yükünü yüngülləşdirməyə cəhd edər.

Əsl dost ulduzlar kimi, ancaq qaranlıq düşəndə ortaya çıxar. İmkanı nisbətində dostunun qara gününü işıqlandırmağa cəhd göstərər, onun dərdinə şərik olar.

Bu baxımdan firavan zamanlarda çay-qəhvə söhbətləri həqiqi dostluq zənn edilməməlidir. Əsas dostluq çətin zamanlarda görülən dostluqdur.

Əsl dost tapmaq son dərəcə çətin olduğu üçün möminin vəzifəsi əvvəlcə özü həqiqi dost olmağa çalışaraq bu cür

dostların çoxalması yolunda canlı bir nümunə olmağa çalışmaqdır.

**Cəfər Sadiq həzrətləri Qurani-Kərim oxumağa başlamadan əvvəl tələffüz olunan "istiazə"nin, yəni "أَعُوذُ بِاللّٰهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ : İlahi rəhmətdən qovulmuş şeytandan Allaha sığınıram" duasının həqiqətini belə izah etmişdir:**

***"(Həqiqi) istiazə Quran qiraətinə təzim olmaq şərtilə dili yalan, qeybət və iftiradan təmizləməkdir."***[10]

Mömin dəstəmaz alarkən ağzını yuyub onu Qurani-Kərim tilavətinə və Haqqın zikrinə layiq olaraq zahiri təmizliyə qovuşdurduğu kimi, yalan, qeybət, böhtan və bu kimi çirkin xasiyyətlərdən də tövbə, istiğfar və gözyaşı ilə xilas olub qəlbini də mənəvi təmizliyə tabe tutmalıdır. Çünki Qurani-Kərim əslində qəlb ilə oxunar. Qəlbi təmizliklə oxunmayan Qurandan həqiqi mənada feyz və ruhaniyyət almaq mümkün deyil.

**Həzrət Aişə** رضي الله عنها anamızın bu xəbərdarlığı nə qədər ibrətlidir:

10. Bursəvi, *Ruhul-Bəyan*, X, 515, ən-Nəhl, 100.

*“Nə qəribədir ki, insan müsəlman qardaşı haqqında işlətdiyi çirkin sözdən ötrü deyil, yediyi halal loğmadan ötrü ağzını yuyur!”.*

Həqiqətən qəlb pis və çirkin xasiyyətlərlə çirkləndikdən sonra bədəni və zahiri görünüşü təmizləyib bəzəməyin heç bir mənası qalmaz. Necə ki, İstanbulun qədim hamamlarından birinin kitabəsində bu mənalı beyt yazılmışdır:

*Tiynətin napak isə, xeyir umma sən germabədən,*

*Öncə təthiri qəlb et, sonra təthiri bədən!..*

Yəni *“Pis xasiyyətli və çirkin xarakter sahibisənsə, hamamdan bir xeyir gözləmə! Həqiqi mənada təmizlik istəyirsənsə, əvvəlcə qəlbini, sonra da bədənini yu!..”*

Böyük Haqq dostlarından İbrahim bin Ədhəm həzrətləri bir gün sərxoşluqdan yol kənarında yatıb qalan əyyaşın murdar qoxulu və natəmiz ağzını yumuşdu. Bunu nə üçün etdiyini soruşanlara da:

“- Əgər Uca Allahı zikr etmək üçün yaradılan dili və ağzı natəmiz qoysaydım, hörmətsizlik olardı”,- demişdi.

Sərxoş ayıldıqda ona:

"- Xorasanın zahidi İbrahim bin Ədhəm sənin ağzını yudu",- dedilər. Bu vəziyyətdən utanan əyyaşın qəlbi qəflətdən oyandı və:

"- Elə isə mən artıq tövbə etdim",- dedi.

Bu tövbəyə səbəb olan İbrahim bin Ədhəm həzrətlərinə yuxuda Haqq qatından belə səs gəldi:

"- Sən Bizim üçün onun ağzını yudun, Biz də sənin üçün onun qəlbini yuduq!.."

**Allah-Təala hər birimizi zahiri və batini təmizliyə müvəffəq eyləsin. Razı olduğu bir qulluq həyatı yaşayıb hüzuruna qəlbi-səlim ilə, yəni mənən təmizlənmiş bir qəlb ilə çıxa bilməyi nəsib etsin.**

**Amin!..**

## HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

### Cəfər Sadiq (q.s) -2-

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Bu beş qrup insanla yoldaşlıq etmə!***

***1) Yalançı: Çünki onunla birlikdə olduğun müddətdə aldanarsan. O, ilğım kimidir. Sənə uzağı yaxın, yaxını uzaq göstərər.***

***2) Axmaq: Sənə fayda vermək istədikdə belə, zərəri toxunar, amma bunun fərqində olmaz.***

***3) Xəsis: Ən çox ehtiyacın olan şeyi səndən əsirgəyər.***

***4) Qorxaq: Səni başqasına təslim edər və dara düşdüyün zaman qaçıb gedər.***

***5) Fasiq: Səni bir loğmaya, ya da daha azına satar".*[11]**

Bir hədisi-şərifdə buyurulur:

"İnsan dostunun dini üzrədir. Ona görə də hər biriniz kiminlə dostluq etdiyinə fikir versin!" (Əbu Davud, Ədəb, 16/4833).

Heç kim ata-anasını, doğulduğu mühiti özü seçə bilməz. Lakin kimlərlə dost olacağını seçmək insanın öz əlindədir və bu seçiminə görə məsuliyyət daşıyır. Çünki insan dostluq etdiklərinin halından pay götürür, şəxsiyyət və xarakterini bu təsirlərlə inşa edir. Çox vaxt doğru yola da, əyri yola da dostlarının təlqinləri ilə yönəlir. Dolayısı ilə əxlaqı naqis insanlarla ünsiyyət qurub onlarla dostluq etmək mənəvi həyata zəhər saçmaq kimidir.

**Cəfər Sadiq həzrətləri** də bu həqiqətə diqqət çəkərək mənəviyyat və əxlaq etibarilə zəif xarakterə sahib olan kəslərdən (onlara təbliğ və xəbərdarlıq xaricində) uzaq durmağı təlqin edir. Çünki ünsiyyət

11. Qəzali, Əhya, II, 172

edilən kəslər arasında asanlıqla bir-birinə sirayət edən pis xasiyyətlər və nəfsani zəifliklər sonunda insanın imanını zədələyə bilər. Bunların ən təhlükəlisi isə **"yalan"** xəstəliyidir. Necə ki, hədisi-şərifdə belə buyurulur:

*"Sidq (doğruluq) insanı yaxşılığa, yaxşılıq da cənnətə aparar. İnsan düz danışmağa davam edə-edə nəhayət, sadiqlərdən olar. Yalan insanı fücura (günah və əxlaqsızlığa), fücur da cəhənnəmə aparar. İnsan yalan danışa-danışa, nəhayət, Allah qatında yalançılardan yazılar"* (Buxari, Ədəb, 69).

Sidq/doğruluq o qədər mühümdür ki, ayeyi-kərimədə hesab günündən söz açılarkən: **"…Bu (qiyamət günü) elə bir gündür ki, sadiqlərə sədaqətləri fayda verər…"** – buyurulur (əl-Maidə, 119).

Sədaqət müsəlman şəxsiyyətnin ayrılmaz vəsfidir. Hətta müşriklər də Hz. Muhammədə ﷺ peyğəmbərlik gəlməmişdən əvvəl öz adı ilə xitab etmək yerinə "əs-Sadiq" sifətilə xitab edərdilər. Çünki onun xarakter və təbiətinin əsli doğru və etibarlı olması idi.

Bir gün **Rəsulullahdan** ﷺ:

"- Mömin qorxaq ola bilərmi?",- deyə soruşdular.

*"- Bəli, ola bilər!"*,- buyurdu.

"- Mömin xəsis ola bilərmi?",- deyə soruşdular.

*"- Bəli, ola bilər!"*,- buyurdu.

"- Bəs mömin yalançı ola bilərmi?",- deyə soruşdular.

Rəsulullah ﷺ bu dəfə:

*"- Xeyr, əsla!"*,- buyurdu (Muvatta, Kəlam, 19; Beyhəqi, *Şuab*, IV, 207).

Deməli, mömin bəşər olması səbəbilə xəta və qüsurlardan tamamilə uzaq dura bilməsə də dünyəvi nöqteyi-nəzərdən öz əleyhinə olduğunu bilsə də, mütləq şəkildə yalandan uzaq durmalı, dürüstlük və doğruluqdan heç vaxt ayrılmamalıdır. Necə ki, Rəsulullah ﷺ zarafat edərkən də həqiqətə zidd bir ifadə işlətməmişdir. Onun dürüstlüyü o dərəcədə idi ki, bir qadın uşağını çağırarkən:

"- Gəl gör, sənə nə verəcəyəm!",- dediyini eşidən kimi qadından uşağa nə

verəcəyini soruşmuş, qadın da bir neçə xurma vermək istədiyini bildirdikdə:

"- Əgər ona heç nə verməsəydin, sənə bir yalan günahı yazılardı",- buyurmuşdu (Əbu Davud, Ədəb, 80/4991; Əhməd, III, 447)

Bunu da əsla unutmamalıyıq ki, əhdindən dönmək, verdiyi sözdə durmamaq, aldatmaq kimi çirkin vəsflər insanın sadəcə əxlaqını pozmaqla qalmaz, imanını da təməlindən laxladar.

Necə ki, bir hədisi-şərifdə:

*"Əmanəti (etibarı) olmayanın imanı da yoxdur"*,- buyurulmuşdur (Əhməd, III, 135)

Yalan günahının mənəvi həyat üzərindəki ağır təxribatına işarə edərək Həzrət **Aişə anamız** ﵂ da belə buyurmuşdur:

"Rəsulullaha ﷺ yalandan daha pis və çirkin gələn xasiyyət yox idi. Əshabından birinin hansısa xüsusda azacıq yalan danışdığını eşitsə, onun tövbə etdiyini öyrənənə qədər o səhabədən uzaq durar, onunla görüşmək istəməzdi" (İbn Sad, I, 378)

Allaha iman gətirənlərin müştərək adı olan “mumin” sözünün bir mənası da ətrafına əmin-amanlıq təlqin edən, etibarlı və dürüst insan deməkdir. Ona görə də bir mömin kimi peyğəmbərlik vəzifəsi verilməmişdən əvvəl belə, “əl-Əmin” və “əs-Sadiq” sifətləri ilə tanınan bir Peyğəmbərin ümməti olduğumuzu unutmamalı, Onun əxlaqından gücümüz nisbətində nümunə götürməliyik.

Həzrət Peyğəmbər ﷺ: *“İnsan sevdiyi ilə bərabərdir”*,- buyurmuşdur (Buxari, Ədəb, 96). Bu bərabərlik isə yalnız zahiri bərabərlik deyil, hal, əməl və əxlaq bərabərliyidir. Ona görə də nəbəvi əxlaqın bugünkü təmsilçiləri mövqeyində olduğumuzu yaddan çıxarmamalı, daim İslam əxlaqına yaraşan şəxsiyyət və xarakter sərgiləməliyik.

Ona görə də ilk növbədə özümüz doğruluq və dürüstlük prinsiplərindən ayrılmamalı və dostlarımızın da belə insanlardan olmasına həssas yanaşmalıyıq.

Cəfər Sadiq həzrətlərinin ikinci olaraq dostluğundan çəkinməyi tövsiyə etdiyi kəslər isə **“axmaq”**lardır. Çünki

axmaq adam dostuna faydalı olduğunu zənn edərək ona zərər versə də, bundan xəbəri olmaz.

**Axmaq** özü ağla möhtac ikən başqalarına ağıl verməyə çalışan, özü zəlalətdə olduğu halda başqalarına yol göstərmək iddiasında olan çaşqın kəsdir. Yəni o, öz ürəyinin ölü olduğunu bilmədən başqa ürəkləri diriltməyin dərdinə düşən qafil insandır. Eynilə **Mövlana həzrətləri**nin nəql etdiyi bu qissədə olduğu kimi:

Bir gün **Həzrət İsa ilə** عليه السلام bir nəfər yol yoldaşı olmuşdu. Yolda gedərkən həmin adam bir kənarda sür-sümük görür və Həzrət İsaya:

“- Nə olar, ya İsa! Bildiyin ismi-əzəmi mənə də öyrət, bu sümükləri canlandırıb ayağa qaldırım”,- deyə yalvarır.

Həzrət İsa isə cavabında:

“- O sənin bacaracağın iş deyil. İsmi-əzəmi oxuyub ölünü diriltmək üçün, yağışdan daha təmiz bir nəfəs sahibi, qulluqda mələklərdən daha anlayışlı bir adam olmaq şərtdir. İsmi-əzəm, (haram və şübhəli loğmanın keçmədiyi) təmiz

bir ağız və (Allahdan uzaqlaşdıran hər şeydən təmizlənmiş bir) ürək istər. Yəni elə bir kimsə ki, nəfsi haram ilə çirklənmiş olmasın və mələklər kimi üsyan və günahdan pak olsun. Çünki bir kimsənin nəfsi pak olmadan, o kimsənin duası məqbul olmaz!..

Məsələn, fərz edək ki, sən Həzrət Musanın əsasını əlində tuta bilərsən. Lakin Musadakı qüvvət səndə varmı ki, onu əjdahaya çevirəsən … Eynilə bunun kimi, səndə İsanın nəfəsi yoxdursa, ismi-əzəmi oxumağın sənə nə faydası ola bilər ki?!" dedi.

Lakin qafil yenə dayanmadı və:

"- Ya İsa! Bu istedad məndə yoxdursa, heç olmasa sən o sümüklərə oxu!",- dedi. İsa bu axmağın sözlərinə mat qaldı və:

"- Ya Rəbbi! Bu sirrin hikməti nədir? Bu axmağın mübahisəyə bu qədər meyl etməsinin səbəbi nədir? **Öz qəlbi ölüdür, başqasının cəsədini diriltməyə çalışır!** Halbuki onun borcu ölü olan öz qəlbini diriltməyə çalışmaqdır. Öz qəlbini diriltmək üçün dua etmək yerinə başqalarını

diriltməyə can atır. Bu nə dəhşətli bir qəflətdir!",- deyərək heyrətini ifadə etdi.

Qeyd edəcəyimiz digər bir hadisə də bu həqiqətin başqa ifadəsidir:

Böyük vəlilərdən Nəcməddini Kübra həzrətləri tələbələriylə birlikdə saleh bir şəxsin cənazə mərasimində iştirak edir. Meyidə təlqin verilən zaman Nəcməddini Kübra həzrətləri birdən təbəssüm edir. Tələbələri ustadın belə bir məqamda təbəssüm etməsinə heyrətlənib bunun hikmətini soruşurlar. Həzrət əvvəlcə açıqlamaq istəmir, lakin israr edildiyi üçün belə deyir:,

"- Təlqini diri ölüyə edər. Halbuki burada təlqin verənin qəlbi qafil, məzara girən meyidin qəlbi isə diridir. Qafil birinin qəlbən diri olana təlqin verməsinə təəccübləndim".

Həyatda **ən pis axmaqlıq** hər biri ilahi qüdrət və sənətin möhürünü daşıyan varlıqları, naqis ağıl və turşudulmuş sifətlə boş-boş seyr edib bunların hikmət və ibrət mərtəbəsinə yüksələ bilməməkdir.

Yenə ən dəhşətli axmaqlıq kainatda sərgilənən ilahi qüdrət və əzəmət təcəllilərinin hikmətindən qafil qalmaqdır. Ağılları heyran qoyan və məntiqə sığmayacaq dərəcədə bir mükəmməllik və ehtişam ifadə edən ilahi tənzimə baxmayaraq, həyat və kainatı kor bir təsadüflə izah etmə sadəlövhlüyünə düşərək, özünü heyvanlar kimi "azad", məsuliyyətsiz və başıboş bir varlıq olaraq görməkdir. Belə kəslər haqqında Haqq-Təala belə buyurur:

**"...Onların qəlbləri vardır, lakin onunla** (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini) **anlamazlar. Onların gözləri vardır, lakin onunla** (Allahın möcüzələrini) **görməzlər. Onların qulaqları vardır, lakin onunla** (öyüd-nəsihət) **eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də,** (ondan) **daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!."** (əl-Əraf, 179)

Belələri iki barmağıyla iki gözünü bağladığı üçün günün günorta çağı günəşi görməyən, bununla da inkar çarəsizliyinə əl atan kor idraklardır. Çünki

nəfsani ehtiraslarını təmin etmək arzusu axmağın könül gözünü kor etmiş, qəlb aləmini sanki qaranlıq bir zindana çevirmişdir. Bu səbəblə axmağın idrakı:

“Bu kainatı kim yaratdı, kimin mülkündə yaşayırıq, bu aləmə nə üçün gəldik, buradan səfər hara?..” kimi, son dərəcə həyati əhəmiyyət kəsb edən sualların təfəkküründən uzaq durmağı seçər. Lakin bu qaçış və inkar qəfləti bir gün onu qaçdığı həqiqətlərlə üzləşməkdən qurtara bilməz.

**Ən pis axmaqlıq** həqiqəti heç olmadığı yerdə axtarmaqdır. Yəni səadəti səfalət bazarında tapmağa çalışıb boş yerə yorulmaq və özünü yazıq günə qoymaqdır. Eynilə qidasını zibillikdə axtaran və ancaq orada rahatlıq tapan murdar siçovullar kimi…

Yenə **ən acınacaqlı axmaqlıq** təpədən-dırnağa batil bataqlığına batmış olduğu halda, özünü haqq və həqiqətin yeganə nümayəndəsi olaraq görmək fanatizmidir. Təkəbbür, lovğalıq və eqoizm sərxoşluğu içində, naqis ağlına həddən

artıq güvənərək nəfs və şeytanın əlində oyuncaq olmaqdır.

Yenə **ən dəhşətli axmaqlıq** nəfsani və müvəqqəti cazibələrə aldanaraq fani dünyanı sonsuz axirətə tərcih etməkdir. Damlaya aldanıb dəryadan qafil qalmaqdır. Məhdud olanı qazanmaq üçün ucsuz-bucaqsızı satmaqdır. Həzrət Ömərin ﷺ buyurduğu kimi "Başqalarının dünyasını abad etmək üçün öz axirətini bərbad etməkdir". Yəni quldan gələcək fani bir mənfəətə aldanaraq, Rəbbinin rizasını itirmək və əbədi mükafatlardan məhrum qalmaqdır.

Məhz belə bir qəflət və axmaqlıq axınına düşmüş kəslərlə dost omaqdan adama fayda yox, yalnız zərər gələr. Bu səbəblə axmağın dostluğundan diqqətlə uzaq olmaq lazımdır.

**Cəfər Sadiq həzrətləri**nin dostluğundan çəkinməmizi tövsiyə etdiyi üçüncü qrup insanlar isə **"xəsis"**lərdir.

Unutmamaq lazımdır ki, sərvətin iki böyük fəlakəti var. Biri, **"israf",** digəri isə **"xəsislik"**dir. **İsraf** insanın sahib olduğu aşağılıq kompleksiniört-basdır etmək

üçün sərgilənən nəfsani güc nümayişidir. Xəsislik isə qorxaqlıqdır. Allaha sığınmaq yerinə, malına arxalanıb güvənməkdir. Haqq-Təala razı qaldığı saleh qullarının bu iki çirkin xasiyyətdən də uzaq olduqlarını belə bəyan buyurmuşdur:

**"Onlar** (mallarını) **xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta bir yol tutarlar."** (əl-Furqan, 67)

Daha əvvəl də ifadə edildiyi kimi xəsisin önə çıxan vəsfi "qorxaqlıq"dır. Ayeyi-kərimədə buyurulur:

**"Şeytan sizi yoxsulluqla qorxudaraq alçaq işlərə sövq edər…"** (əl-Bəqərə, 268)

Xəsis adam ruzi məsələsində ilahi təqdir və təqsimə təvəkkülündəki nöqsanlıq səbəbilə ehtiyacı olandan artığını yığmağa çalışar və hər zaman malına arxalanar. Hüməzə surəsində bu həqiqətə diqqət çəkilir:

**"…**(Vay halına o adamın) **ki, mal yığıb onu dönə-dönə sayar** (çoxaldar)**. Və elə zənn edər ki, mal-dövləti onu əbədi yaşadacaqdır. Xeyr!** (Heç də onun güman etdiyi kimi deyildir)**. O mütləq**

(Cəhənnəmin alt mərtəbələrindən biri olan) **Hütəməyə atılacaqdır! Sən nə bilirsən** (haradan bilirsən) **ki, Hütəmə nədir?! O, Allahın yanar odudur. Elə bir od ki, ürəkləri yandırıb-yaxar...”** (əl-Huməzə, 2-7)

Sahib olduğu malı öz varlığının yeganə təminatı olaraq görən xəsis dara düşəndə malını itirmək qorxusuyla dost kimi göründüyü kəsləri tərk etməkdən çəkinməz. Yəni malını itirməkdənsə, dost itirməyi asanlıqla seçər. Çünki xəsis maddi qiymətlərlə satın alına bilməyəcək olan vəfa, mərhəmət, sədaqət və səmimiyyət kimi yüksək dəyərlərdən məhrumdur.

Pis əxlaq və çirkin xüsusiyyətlər bir-birinə bağlıdır. Xəsis insan mərhəmətsizdir, mərhəmətsiz insan təkəbbürlü və lovğadır, lovğa insan da Allah yolunda səy və fədakarlıqdan uzaqdır. Yəni xəsislik bütün pis xasiyyətlərə bağlı olan və nəhayət, insanı mənən həlaka sürükləyən, çirkin bir xüsusiyyətdir. Hədisi-şərifdə buyurulduğu kimi:

*"…Xəsislik, budaqları dünyaya uzanmış cəhənnəm ağaclarından bir ağacdır. Kim onun budaqlarından birindən yapışarsa, bu, onu cəhənnəmə qədər sürükləyib aparar!.."* (Beyhəqi, *Şuabul-İman*, VII, 435)

Bu səbəbdən xəsis insanlarla dost olmamaq və onlardan gələ biləcək dostluq iddialarına da daim ehtiyatla yanaşmaq lazımdır.

**Cəfər Sadiq həzrətləri**nin dost olmaqdan çəkinməmizi tövsiyə etdiyi dördüncü qrup insanlar **"qorxaq"**lardır. Çünki qorxaq çətinə düşəndə qaçan və ya dostunu düşməninə təslim edə bilən, alçaq xarakterli kimsədir. Halbuki bu qəbildən olan çirkin xasiyyətlər nə İslam əxlaqıyla uzlaşır, nə də din qardaşlığı hüququyla... Necə ki bir hədisi şərifdə:

*"Müsəlman müsəlmanın qardaşıdır. Ona zülm etməz, onu düşmənə təslim etməz…"* buyurulmuşdur. (Buxari, Məzalim, 3; Müslim, Birr, 58)

Kamil imana sahib olan bir müsəlman Allahdan başqasından qorxmaz. Bu sayədə qula qulluq etməkdən xilas olar.

Hər xüsusda ümmətinə misilsiz nümunə şəxsiyyət olan Həzrət ﷺ də dualarında qorxaqlıqdan Allaha sığınmış, düşmən üzərinə edilən səfərlərdə ordusunun ən önündə gedərək səhabələrinə cəsarət təlqin etmişdir. Onun döyüş meydanlarında sərgilədiyi möhtəşəm şücaət və qəhrəmanlığa hətta igidlərin piri **Həzrət Əli** ؓ də heyran olmuş və onun cəsarət timsali saysız hallarından birini belə nəql etmişdir:

“Biz Bədirdə Rəsulullaha ﷺ sığınırdıq. O gün düşmənə ən yaxın dayananımız və insanların ən cəsur və mətanətli olanı Allah Rəsulu idi”. (Əhməd, I, 86)

Səhabələrin iman həyəcanından qaynaqlanan saysız-hesabsız cəsarət misallarından biri də kor səhabə **Abdullah ibn Ümmü Məktumun** ؓ Qadisiyyə Səfərində bayraqdarlıq etməsi hadisəsidir.

Ordu səfərə çıxacağı zaman o mübarək səhabə böyük bir iman vəcdiylə orduya qoşulmaq istəmişdi. Lakin ona gözləri görmədiyi üçün səfərdən azad olduğu deyildikdə, o mübarək səhabə hüznə qərq oldu. Yüksək bir iman

üfüqüylə vəziyyətini təfəkkür edincə, özünün hərbdən azad olduğunu söyləyənlərə bu möhtəşəm cavabı verdiyi nəql edilir:

"- Mənim bu halımla da sizə böyük bir faydam toxuna bilər. Çünki mən kor olduğum üçün düşmən qılınclarını görə bilmərəm, buna görə də cəsarətim qırılmadan ən qabaqda bayrağı daşıyaram. Mənim qorxmadan, cəsarətlə düşmənin üstünə getdiyimi görən müsəlmanların da cəsarət, qəhrəmanlıq və həyəcanı artar".

Kor səhabə İbn Ümmü Məktumun bu iman cəsarəti, sağlamlığı və qüvvəti yerində olan möminlər üçün necə də möhtəşəm bir dərsdir.

Cəsarətin ziddi olan qorxaqlıq isə insanı zillət və əsarətə məhkum edən bir zəiflikdir. Bu zəifliyin təzahürləri insanın bütün hal və hərəkətlərinə sirayət edər. Məsələn, qorxaq bir adam comərd ola bilməz, çünki infaq etməklə malının azalacağını fikirləşər, kasıblaşmaqdan qorxar.

Bu səbəbdən insanın mənəviyyatına verdiyi mənfi təsir səbəbilə qorxaq kəslə-

rin dostluğundan da xeyir gəlməyəcəyini bilmək lazımdır.

**Cəfər Sadiq həzrətləri**nin son olaraq dostluğundan çəkinməyi tövsiyə etdiyi kəslər isə **"fasiq"**lərdir. Çünki fasiq nəfsinin əsiridir. Günahların cazibəsinə aldanaraq nəfsani yaşayış tərzinin məhkumu olmuşdur. Buna görə ən kiçik bir nəfsi mənfəəti üçün dostunu satmaqdan çəkinməz.

Ayeyi-kərimədə fasiqlərə qarşı son dərəcə ehtiyatlı olmaq belə tövsiyə edilməkdədir:

**"Ey iman gətirənlər! Əgər bir fasiq sizə** (pis) **bir xəbər gətirsə, dərhal** (onun doğruluğunu) **yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız!".** (əl-Hucurat, 6)

Yəni fasiqin nəfsi ehtirasları uğruna haqlı kimi görünərək çıxarda biləcəyi fitnə və fəsaddan əsla əmin olmaq mümkün deyil. Çünki fasiq yalan, böhtan və təhqirə alışmış, əxlaqsız kimsədir. Buna görə də fasiqin ipiylə quyuya düşmək olmaz, sözünə etibar edilməz, şahidliyinə güvənilməz.

Həmçinin fasiqlər kimi küfr əhliylə dostluq da mənfi bir hal nəqlinə səbəb olub qəlbə qatılıq və zülmət verər. İmam Rəbbani həzrətlərinin bir məktubunda nəql etdiyi bu hadisə nə qədər ibrətlidir:

*"Bir dəfə xəstə bir adamı ziyarətə getmişdim. Ölümü yaxınlaşmışdı. Halına nəzər salanda gördüm ki, qəlbi dəhşətli zülmət içindədir. Hər nə qədər bu zülmətin qalxması üçün nəzər salsam da azacıq da olsa qalxmadı. Çox təvəccöh etdikdən sonra məlum oldu ki, bu qaranlıqlar ona küfr əhlindən sirayət edən mənfi hallardan qaynaqlanır. Bu çətinliklərin mənşəyi küfr əhli ilə dostluq etməsidir.*

*Bundan sonra anladım ki, bu qaranlıqları dəf etmək üçün təvəccöh etmək kifayət etməyəcək... Çünki onun bu zülmətlərdən təmizlənməsi cəhənnəm əzabına qalmışdır ki, küfr əhliylə birliyin cəzası budur.*

*Bu vaxt o da məlum oldu ki, imandan bir zərrə onu əbədi cəhənnəm əzabında qalmaqdan qurtaracaq. Bu da azacıq imanın bərəkətiylə olacaq.*

*Daha sonra ağlıma "görəsən, bunun cənazə namazını Qılmaq caizdir, ya yox?",- sualı gəldi. Bu da təvəccöhdən sonra müəy-*

*yən oldu ki, onun namazını qılmaq yerindədir. O müsəlmanlar ki, imanın varlığıyla birlikdə küfr əhlinin adətlərini icra edərlər və onların günlərinə hörmət edərlər... yenə də onların namazını qılmaq lazımdır. Onları kafirlər cərgəsinə qatmaq doğru olmaz… İşin sonunda onların əbədi əzabdan xilas olmalarını ümid etmək də yerində olan davranışdır".* (Bax. Məktubati-İmami-Rəbbani, c. I, 266. Məktub)

Küfr əhlini dost seçməyin acınacaqlı aqibətinə dair bəlkə də ən ibrətli misal tarixdəki Əndəlüs (İspaniya) müsəlmanlarıdır.

Əndəlüs müsəlmanları ilk əsrlərdəki iman həyəcanından uzaqlaşaraq nəfsani ehtiraslara düşərək bölünüb parçalanmışdılar. Üstəlik müsəlman bəyliklər girdikləri qardaş qovğalarında özlərinə kömək etmələri üçün xristianları dost seçmişdilər. Məhz həmin "dostluq" onların süqutuna zəmin hazırladı.

Xülasə, möminlər olaraq həyatda özümüzə kimləri dost seçdiyimizə son dərəcə diqqət etməli və:

**“Ey iman gətirənlər! Allahdan qorxun və sadiqlərlə birlikdə olun”.** (ət-Tövbə, 119) ilahi əmrini, özümüzə düstur etməliyik.

Unutmayaq ki, İmam Qəzali həzrətlərinin buyurduğu kimi, fasiq və qafil insanlarla zahiri bərabərlik zamanla zehni bərabərliyə, zehni bərabərlik də bir müddət sonra qəlbi bərabərliyə çevrilər. Bu isə insanın mənəvi baxımdan addım-addım həlaka sürüklənməsi deməkdir.

Haqq-Təala fasiqlərlə birlikdə fisq-fücura dalanların axirətdəki peşmançılıqlarından bir mənzərəni ayeyi-kərimələrdə belə xəbər verir:

“(Cənnətə girənlər uzaqdan günahkarlara sual verərlər:) **“Sizi Səqərə** (Cəhənnəmə) **salan nədir?” Onlar deyəcəklər: “Biz namaz qılanlardan deyildik; Yoxsulu da yedirtməzdik; Batilə dalanlarla birlikdə biz də dalardıq; Haqq-hesab gününü yalan sayardıq. Ölüm bizi haqlayana qədər (bu vəziyyətdə qaldıq)”.** (əl-Muddəssir, 42-47)

Deməli, Haqq-Təalaya səcdə etmək yerinə, mərhəmətsizlik, xəsislik, qatı qəl-

bə sahib olmaq və axirəti inkar etmək kimi insanı cəhənnəmə düçar edən vəsflərdən biri də batilə dalan fasiqlərlə həmhal olmaq, günahkarlarla oturub-durmaq və onların yolu ilə getməkdir.

Əgər axirətdə saleh və sadiqlərlə birlikdə həşr olunmaq istəyiriksə, bu dünyada onların yanında yer almalı, hal, hərəkət və əməl müştərəkliyi içində onlarla birlikdə ibadət iqlimində olmalı, əxlaqda və davranışlarımızda onlara bənzəməyə çalışmalıyıq.

**Allah-Təala lütfü ilə hər birimizi sevib razı olduğu qullarının arasına ilhaq eyləsin.**

**Amin!..**

# HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

## Cəfər Sadiq q.s -3-

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Rəsulullahın ﷺ zahirində yaşayan kəs sünnidir. Onun (həm zahir həm də) batinində yaşayan kəs isə sufidir."***[12]

İnsan oğlunun yaradılışdan gələn iki tərəfi var:

1) Turabi, yəni torpaqdan yaradılmış cismani tərəfi.

2) Ruhi, yəni dəruni və qəlbi tərəfi.

İnsan oğlu ruhi və cismani quruluşdan ibarət olduğu kimi ilahi əmr və qadağalar da insanın həm zahirini, həm də batinini tənzimləyir.

12. Əbu Nuaym, *Hilye,* I, 20.

Məqbul qulluq həyatı üçün bədən və ruh, ağıl və qəlb, maddə və məna daim ahəng içində olmalıdır. Çünki bədənsiz namaz qıla, oruc tuta bilmərik. Xeyirli və saleh əməllər işləyə bilmərik. Lakin bədən insanın əsas varlığı deyil. Bədən bir növ ruhun libası kimidir. Ona görə də bədənin hökmü ölümlə sona çatır.

Düşündüyümuz zaman iki qapılı karvansaraya bənzəyən bu dünya Hz. Adəmdən bugünə qədər saysız-hesabsız insanın gəlişi ilə bir qapıdan dolub, digərindən boşalıb. Torpaqdan yaranan insanın təkrar torpağa qayıdışı ilə təkrarlanan bu dövriyyə qiyamətə qədər davam edəcəkdir. Üstündə gəzdiyimiz yer üzü bir tərəfdən dünyaya gələcək bütün insanların mayasını / nüvəsini özündə saxlayarkən, digər tərəfdən də bu günə qədər gəlib-keçmiş milyardlarla unsanın torpağa dönmüş cəsədləri ilə doludur… Sanki üst-üstə düşən milyardlarla kölgə kimidir… Sabah biz də toprağın qoynuna girərək bu qaranlıq kölgənin içində yerimizi tutacağıq. Ondan sonra isə əbədi həyat başlayacaq.

Məhz həmin əbədiyyət səfərində bizə yoldaş cismani gücümüz və gözəlliyimiz yox, qəlbi gözəlliyimiz və bunun isbatı olan saleh əməllərimizdir.

Ona görə də **Mövlana həzrətləri** belə nəsihət edir:

*"Vücudunu həddən artıq bəsləməyə çalışma! Çünki o, sonunda torpağa veriləcək qurbandır. Sən könlünü feyz bulaqlarından doldurmağa bax. Çünki ucalara gedəcək və şərəflənəcək olan odur…*

*Ruhuna mənəvi qidalar ver. Kamil düşüncə, incə anlayış və ruhi qidalarla bəslə ki, gedəcəyi yerə güclü və qüvvətli getsin!".*

Əslində bu fani imtahan dünyasına göndərilməyimizdən məqsəd də nəfsani ehtirasları kənarlaşdıraraq mənən təmizlənmiş səlim bir qəlb ilə Rəbbimizin hüzuruna qayıda bilməkdir. İnsanın bu qayəyə çatması üçün Allah-Təala ilahi kitablar, peyğəmbərlər və mürşidi-kamillər lütf etmişdir.

Uca Allah bu lütfünün ən mükəmməlini isə insanlıqda təcəlli edən ilahi sənətin ən müstəsna xariqəsi olan **Həbibi-**

**Əkrəmin** ﷺ misilsiz nümunəvi şəxsiyyətində sərgiləmişdir.

Hidayət rəhbərimiz Qurani-Kərimin canlı təfsirindən ibarət olan nəbəvi həyat Rəbbimizin biz qullarından istədiyi **"kamil insan"** modelinin ideal nümunəsidir.

Fəqət **Cəfər Sadiq həzrətləri**nin də işarə etdiyi kimi, Allah Rəsulunu özümüzə rəhbər seçərkən onu yalnız şəkli və zahiri tərəfi ilə deyil, bununla yanaşı ruhi, dəruni və əxlaqi tərəfi ilə də gücümüz çatdığı qədər nümunə götürməliyik. Əks təqdirdə sanki bir qanadla uçmağa çalışan quş kimi qulluğumuz da Haqqın rizasına vüslət yolunda nöqsanlı qalar.

Bu baxımdan Rəsulullahı ﷺ söz, fel və davranışları etibarilə tanımaq qədər Onun könül dünyası ilə də yaxından tanışlıq zəruridir. Bu isə Allah Rəsulunu

- Daim axirəti seçməsi,
- Zöhd və riyazəti,
- İxlas və təqvası,
- Ehsan və müraqibə həssaslığı,
- İbadətlərdəki xüşu halı,

• İlahi qüdrət və əzəmət təcəlliləri qarşısında Allah qorxusu, acizlik, heçlik hissiyatı və dərin təfəkkürü,

• Bəşəri davranışlarda müstəsna nəzakət, zəriflik, ədəb və həyası,

• Bütün məxluqata qarşı geniş şəfqət və mərhəməti,

• Misli görülməmiş comərdlik, fədakarlıq və qayğıkeşliyi kimi, bütün örnək halları və əxlaqı cəhətiylə də tanımaq deməkdir.

Təsəvvüfi tərbiyənin əsasını Hz. Peyğəmbərin zahiri və batini bütün hal və hərəkətlərində bütünləşmə cəhdi təşkil edir. Rəsulullahın halı ilə həmhal olmaq, əxlaqıyla əxlaqlanmaq üçün Onun sünnələrinə dəqiqliklə riayət etməklə yanaşı qəlbi keyfiyyətlərindən də faydalanmağa çalışmaqdır. Bu sayədə dini **şəriət, təriqət, həqiqət** və **mərifət** kamilliyi ilə idrak edib yaşamağa cəhd göstərməkdir.

Dini dərk edib yaşamaq xüsusundakı bu qəlbi dərinlik fərqini məşhur misalla xülasə edə bilərik:

• **Şəriət**də doyandan sonra yemək israfdır.

• **Təriqət**də doyana qədər yemək israfdır.

• **Həqiqət**də kifayət miqdarını Allahın hüzurundan qafil olaraq yemək israfdır.

• **Mərifət**də isə bütün bunlara əlavə olaraq nemətlərdəki ilahi təcəllilləri idrak etmədən yemək israfdır. Çünki Allah-Təalanın yaratdığı hər varlıq Onun sonsuz qüdrət və əzəmətinin dəlili mahiyyətindədir.

Məhz təsəvvüf Hz. Peyğəmbərin nümunəvi əxlaqından və könül aləmindən əks edən bu kimi qəlbi həssaslıqları və təfəkkür dərinliyini bütün qulluq həyatına nəqş edə bilmə cəhdindən ibarətdir.

Haqq-Təala Həbibi-Əkrəmi ﷺ "misilsiz nümunəvi şəxsiyyət" olaraq qiyamətə qədər gələcək bütün insanlığa ərməğan etmişdir. Xüsusilə zəmanəmizdə Rəsulullahın nümunəvi şəxsiyyət və xarakteri ilə birlikdə qəlbi həssaslığını da bütün ehtişamı ilə idrak etməyə möhta-

cıq. Aləmlərə rəhmət olaraq göndərilən Allah Rəsulunun müsəlman və ya qeyri-müsəlman, canlı və ya cansız bütün məxluqata şamil olan mərhəmət duyğusunu bu gün daha çox idrak etmək məcburiyyətindəyik.

Kainatın iftixar qaynağı Rəsulullahın ﷺ acından qarnına daş bağladığı zamanlar olardı, günlərlə evində ocaq yanmaz, yemək tapılmazdı. Lakin əlinə dünya malı düşən kimi -borcu varsa, onu ödəmək üçün ayırdığı xaric- özü üçün heç nə saxlamazdı. Özü möhtac olsa da israrla nəyi varsa, möhtaclara infaq edərdi. Bu hal Rəsulullah ﷺ üçün misilsiz ləzzət idi. Əshabının ehtiyacını təmin etmədən özünün və ailəsinin ehtiyacını düşünməzdi. Hər halda "əvvəlcə ümmətim" deyər, ümməti hüzura qovuşmadan rahatlıq tapmazdı.

Qeyd edəcəyimiz hadisə bu nəbəvi həssasiyyətin necə də gözəl nümunəsidir:

Səhabədən **Əbu Hüreyrə** رضي الله عنه bir gün çox acmış, yeməyə heç nə tapmadığı üçün də qarnına daş bağlamışdı. Belə bir vəziyyətdə **Hz. Əbu Bəkrlə** qarşılaşdı və

onu doyduracağını ümid edərək bir ayə haqqında sual verdi. Həzrət Əbu Bəkr isə suala cavab verdikdən sonra getdi. Daha sonra **Hz. Ömər** gəldi. O da eyni cür rəftar etdi. Çünki o anda heç birinin imkanı yox idi. Bu zaman **Allah Rəsulu** ﷺ Əbu Hüreyrəni gördü və qəlbindən keçəni üzündən oxuyaraq onu evinə dəvət etdi.

Rəsulullahın evinə bir az süd gətirmişdilər. Əbu Hüreyrə südü görüb sevindi. Lakin Allah Rəsulu Əbu Hüreyrəyə Suffə əshabını çağırmağı əmr etdi. Suffə əshabı özünü tamamilə İslamı öyrənməyə həsr etdiyi üçün dünyalıq qazanmaqla məşğul olmayan kasıb səhabələrdi.

Allah Rəsulunun Suffə əshabını dəvət etməsi Əbu Hüreyrənin o qədər də xoşuna gəlmədi. Çünki içəcəkləri süd onlara kifayət etməyəcəkdi. Lakin Allah Rəsulunun əmrinə itaətsizlik də olmazdı. Bu düşüncə ilə dərhal gedib Suffə əshabını dəvət etdi.

Rəsulullah Əbu Hüreyrəyə tapşırdı ki, südü bir-bir bütün Suffə əshabına təqdim etsin. Qabı əlinə alan hər səhabə doyunca süddən içdikdən sonra

Əbu Hüreyrəyə verdi. Bütün Suffə əshabı içdikdən sonra Əbu Hüreyrə ﵁ qabı Rəsulullaha ﷺ uzatdı. Allah Rəsulu əlinə aldığı qabı Əbu Hüreyrəyə verərək:

*"- Otur, iç!"*,- buyurdu. O da oturub doyunca içdi. Nə zaman qabı Rəsulullaha vermək istəsə, təkrar:

*"- Otur, iç!"*,- buyurdu. Nəhayət, Əbu Hüreyrə ﵁:

"- Xeyr, Səni haqq peyğəmbər olaraq göndərən Allaha and olsun ki, artıq içəcək yerim qalmadı",- dedi. Nəhayət Rəsulullah ﷺ qabı əlinə götürdü, Allaha həmd etdi, bismillah deyərək qalan südü içdi." (Bax. Buxari, Riqaq, 17)

Məhz Allah Rəsulunun könül iqlimindən hissə alan Peyğəmbər aşiqləri də yer üzündə üşüyən möminlər var olduqca isinə bilməyən, qonşuları ac ikən tox yata bilməyən, din qardaşlarının iztirabı ilə kədərlənən, özünü məzluma, qəribə, yetimə və kimsəsizə zamin bilən və könüllərini bir rəhmət dərgahı halına gətirmiş olan ali ruhlardır.

Görəsən, bizim könül dünyamız bu qəlbi duyğulardan nə qədər nəsib almışdır? Bu nəbəvi həssas ölçülər vicdanlarımıza nə qədər tanış gəlir? Ağır iztirablar içində qıvrılsa da yüksək həya, iffət və heysiyyəti səbəbilə heç kimə ehtiyacını ərz edə bilməyən qəlbiqırıq din qardaşlarımızı simasından tanıya biləcək könül gözünə sahibikmi? "Əvvəlcə nəfsim" demək yerinə, "əvvəlcə din qardaşım" deyə biləcək qayğıkeş ruha sahibikmi?..

Allah-Təala əziz Peyğəmbərini bizə belə təqdim edir:

**"Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə** (məşəqqətə) **düşməyiniz ona ağır gəlir, o sizdən** (sizin iman gətirməyinizdən) **ötrü təşnədir, möminlərə qarşı rauf** (şəfqətli)**, rəhimdir** (mərhəmətlidir)**!"** (Tövbə, 128)

Yəni Uca Rəbbimiz Rəsulunun ümmətinə olan məhəbbət və düşkünlüyünü özünə aid iki böyük sifət olan **"rauf"** və **"rəhim"** ilə ifadə edir. Zira Allah Rəsulu şəfqətli bir ananın övladına olan məhəbbət və mərhəmətindən daha çoxunu ümməti üçün hiss edirdi. Bunun saysız-

hesabsız nümunələrini dəfələrlə həyatında göstərmişdir.

Bir səfərə gedəndə ordunun ən önündə irəliləyərək ümmətinə düçar ola biləcək əziyyət və məşəqqətlərə əvvəlcə özü sinə gərmək istəyir, geri qayıdarkən də ən arxadan gələrək yaralı və kədərli müsəlmanlara kömək edir, onların dərdlərinə şərik olaraq təsəlli verirdi.

Həmçinin o **Rəhmət Peyğəmbəri** ﷺ:

*"Mən hər möminə öz nəfsindən daha yaxınam. Bir adam öldüyü zaman malı qalarsa, o mal yaxınlarına aiddir. Lakin borcu və ya yetimləri qalmışsa, həmin borc Mənə aiddir, yetimlərə baxmaq da Mənim vəzifəmdir"*,- buyururdu. (Müslim, Cümə, 43; İbn Macə, Müqəddimə, 7)

Ömrü boyu ümmətinin yaxşılığı üçün çırpındığı kimi vəfatından sonra da ümmətinin dərdiylə dolu olacağını belə ifadə edirdi:

*"Həyatım sizin üçün xeyirlidir. Başınıza bəzi hadisələr gələr, bunun üzərinə sizə ilahi vəhy və hökmlər nazil olar. Vəfatım da sizin üçün xeyirlidir. Əməlləriniz Mənə ərz olu-*

*nar. Gözəl bir əməl gördüyüm zaman Allaha həmd edərəm, pis bir əməlinizi gördükdə də sizin üçün Allahdan bağışlanma diləyərəm"* (Heysəmi, IX, 24).

*"Diqqətli olun! Mən yaşadığım müddətdə sizin üçün əmin-amanlığa vəsiləyəm. Vəfat etdikdən sonra isə qəbrimdə: "Ya Rəbbi, ümmətim, ümmətim!..", -deyə-deyə sura üfürülənə qədər nida edəcəyəm…"* (Əli əl-Müttəqi, *Kənzul-Ummal*, c. 14, s. 414)

Gördüyümüz kimi Allah Rəsulunun ən böyük dərdi ümmətinin səadəti və əbədi qurtuluşu idi. Ömrü boyu olduğu kimi indi də bərzəx aləmində ümmətini dilindən və könlündən düşürməyən Rəsulullaha ﷺ eyni eşq və məhəbbətlə cavab verə bilmək Ona ümmət olmaqla şərəflənən hər bir möminin vəfa borcudur.

Bəs bu xüsusda bizim vəziyyətimiz necədir? Allah Rəsulu qiyamətə qədər qəbrində bizim üçün dua edərkən, bizim arzularımız, istək və hədəflərimiz nə qədər "nəfsi-nəfsi" eqoizmi izhar edir, nə qədər "ümməti-ümməti" qayğısı daşıyır?

Rəsulullahın ﷺ ümməti üçün etdiyi bir çox duasındakı arzularının gerçəkləşməsi yolunda hansı cəhdləri etdik? Nəbəvi bir arzunun həyata keçməsi uğrunda hansı dünyəvi arzumuzdan üz çevirdik?

Ümməti-Muhammədin maddi və zahiri ehtiyacları ilə birlikdə mənəvi və imani dərdlərinin nə qədəri ilə maraqlana bildik?

Millətimizin din, iman və əxlaq sahəsində yaşadığı dəhşətli erroziyanın qarşısını ala bilmək üçün hansı mücadiləni verdik?

Allah Rəsulu ﷺ sevincdə və kədərdə, zəfərdə və məğlubiyyətdə, bolluqda və qıtlıqda daim **"əsas həyatın axirət həyatı olduğu"**nu vurğulamış və:

*"Allahım, bizi dinimizdə müsibətə düçar etmə! Dünyanı ən böyük düşüncəmiz və qayəmiz, elmimizin çata biləcəyi son nöqtə qılma!..."*[13],- deyə dua etmişdir. Bəs bizim dərdlərimizin və təlaşlarımızın əsas ağırlığı dini və uxrəvi məsələlərdir, yoxsa

13. Tirmizi, Dəavat, 79

gündəlik dünyəvi təlaşlar və nəfsani ehtiraslardır?..

Gündəmimizi məşğul edən saysız təlaş və qorxularımız içində **"son nəfəs"** qorxusu, **"axirət"** təlaşı və **"ümməti-Muhamməd"**in dərdləri neçənci sırada yer alır?..

Unutmayaq ki, Allah Rəsulunun biz ümməti ilə bağlı bütün bəyanları hər birimizə böyük bir məsuliyyət yükləyir. Biz də o **"rauf və rəhim"** Peyğəmbərə vəfa göstərərək ümmətin dərdini çəkməli, Rəsulullahın gül üzündə bir təbəssüm ola bilmək səyləri ilə çırpınmalıyıq.

İslam alimləri yer üzünün hansısa bölgəsində zülmə məruz qalan, əsir düşən və ya əzilən din qardaşlarına kömək etməyə gücü çatdığı halda yardım etməyən müsəlmanların böyük günaha batacaqları xüsusunda ittifaq etmişlər.

Bu gün Myanma, Suriya, Afrika və digər İslam torpaqlarındakı din qardaşlarımızın acınacaqlı halı bizim üçün ilahi imtahan tablosudur!..

Biz ümmətin dərdiylə dərdlənib Allah Rəsulunun əmanətinə nə qədər sahib çıxa bilərsək, Rəsulullahın mübarək siması da bizim sayəmizdə həmin nisbətdə güləcəkdir. Lakin -Allah qorusun- biz eqoizm bataqlığına düşüb nəfsani didişmələrlə din qardaşlığı hüququnu tapdalayarsaq, bu dəfə də Onun rəqiq və lətif ruhu bizim ucbatımızdan inciyəcək, hüznə qərq olacaq.

Necə ki, **Rəsulullah** ﷺ qəlbini titrədən bu təlaşı biz ümmətinə xəbərdarlıq edərək belə dilə gətirmişdir:

*"Mən axirətə sizdən əvvəl gedəcəyəm və sizin üçün hazırlıq görəcəyəm, sizin Allah yolundakı xidmətlərinizə şahidlik edəcəyəm. Görüş yerimiz Kövsər hovuzunun yanıdır. Mən hal-hazırda olduğum yerdən Kövsər hovuzunu görürəm. Sizin Allaha şərik qoşmağınızdan qorxmuram. Amma dünya ehtirası ilə bir-birinizi qırmağınızdan qorxuram"* (Buxari, Məğazi, 17; Müslim, Fəzail 31).

Unutmayaq ki, məhşərin o dəhşətli anında Allah Rəsulunun şəfaətinə möhtacıq. Onun bayrağı altında toplaşıb kövsər hovuzunda rahatlıq tapmağa möh-

tacıq. Yəni Ona yaxın olmaq və Onunla birlikdə olmaq ən həyati zərurətdir.

Bu yaxınlıq və bərabərliyin yolunu isə **Könüllər Sultanı** belə müjdələyir:

*"İnsan sevdiyi ilə bərabərdir"* (Buxari, Ədəb, 96).

Lakin bu bərabərliyin həqiqəti hal bərabərliyi, əməl bərabərliyi, əxlaq bərabərliyi, duyğu və fikir bərabərliyi, xülasə, istiqamət bərabərliyidir. Allah Rəsulunun ümmətinə təşnə olmasında Onunla birlikdə olmaqdır. İbadətlərdəki xüşu halında Onunla bərabər olmaqdır. Davranışlarındakı nəzakət və zərifliyində Onunla bərabər ola bilməkdir…

Belə bir bərabərlik olduqdan sonra ən uzaqdakı adam belə yaxın sayılar. Lakin bu bərabərlik yoxdursa, ən yaxındakı belə uzaq sayılar. Yağan ilahi rəhmətdən yalnız nəfsini torpaq kimi qəbuledici hala gətirənlər istifadə edə bilərlər. Lovğalıq, təkəbbür və eqoizm səbəbilə daşlaşmış xam nəfslər isə eynilə bərk qayalıqlar kimi üzərlərindən axıb gedən yaz yağışının rəhmət damlalarından pay ala bilməzlər.

**Mövlana həzrətləri** ilahi rəhmətin iki böyük təcəlligahı olan **Qurani-Kərim** və **Allah Rəsulu**na yaxınlıq və onlardan istifadə xüsusunda insanların vəziyyətini belə təşbeh edir:

*"Günəş quru budağa da, yaş budağa da yaxındır (hər ikisinə işıqlandıran və isidən şüalarını əsirgəməz). Lakin zamanı gəldikdə yetişmiş, ləzzətli və gözəl ətirli meyvələrini yeyəcəyin yaş və təzə budağın günəşə yaxınlığı hara, quru budağın yaxınlığı hara?!*

*Quru budaq günəşə yaxın olduğu üçün daha da qurumaqdan (və yandırılacaq odun olmaqdan) başqa nə əldə edə bilər?!".*

Allah-Təala ayeyi-kərimədə belə buyurur:

**"Biz Qurandan möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik. O, zalımların** (kafirlərin) **ancaq ziyanını artırır."** (əl-İsra, 82)

Deməli, Qurani-Kərim və Rəsulullaha həqiqi yaxınlığımız yalnız mənəvi istifadəmiz və həmhal olmamız ölçüsündədir.

Bir gün **Allah Rəsulu** belə buyurdu:

*- Qardaşlarımızı görməyi çox istədim. Onlar üçün darıxdım!*

Əshabi-kiram:

- Biz Sənin qardaşların deyilikmi, ya Rəsulallah?,- dedikdə Allah Rəsulu buyurdu:

*- Siz mənim əshabımsınız. Qardaşlarımız isə hələ dünyaya gəlməyənlərdir.*

- Ümmətinizdən hələ dünyaya gəlməyənləri necə tanıyacaqsınız, ey Allahın Rəsulu?,- deyə sual verdikləri zaman:

- Düşünün ki, bir adamın ayaqları və üzü ağ olan atı var. Həmin adam bu atını hamısı qara olan bir at ilxısının içində tanıya bilməzmi?,- deyə soruşdu. Əshabi- Kiram:

- Bəli, tanıyar, ya Rəsulallah!,- dedilər. Allah Rəsulu belə buyurdu:

*- Məhz onlar da dəstəmaz üzvləri ağappaq olduğu halda gələcəklər. Mən əvvəlcə gedib hovuzumun başında onlara ikram etmək üçün gözləyəcəyəm. Diqqət edin! Bəziləri vəhşi dəvənin sürüdən qovulub uzaqlaşdırıldığı kimi mənim hovuzumdan qovulacaqlar.*

*Mən onlara "bura gəlin",- deyəcəyəm. Mənə "Onlar səndən sonra hallarını dəyişdirdilər (Sənin sünnəni tərk edib başqa yollara düşdülər)",- deyiləcək. Bu zaman mən də "Uzaq olsunlar, uzaq olsunlar!",- deyəcəyəm".* (Müslim, Təharət, 39)

Deməli, Allah Rəsulu ilə axirətdə bərabər ola bilməyin yolu bu dünyada daim Onunla olmaqdan keçir. Onun bizə bəslədiyi məhəbbət və həsrəti qarşılıqsız qoymayıb hər vasitə ilə Ona məhəbbət və bağlılığımızı yeniləməli və canlı tutmalıyıq. Çünki əsl məhəbbət iki qəlb arasında cərəyan xətti qurar. Bu xətt vasitəsilə davamlı "hal nəqli" gerçəkləşər. Həqiqi mənada sevən adama sevdiyinin hal və hərəkətləri davamlı olaraq əks edər.

Yəni sevən sevgisi nisbətində sevdiyinə bənzəyər, onun şəxsiyyət və xarakterindən pay götürər. Rəsulullahdan ﷺ alacağımız ən mühüm mənəvi təhsil daxili dünyamızı Onun könül iqlimindəki hissiyatla müştərək hala gətirə bilməkdir.

Bir sözlə, "Mən Allah Rəsulunu sevirəm" demək kifayət etmir. Seviriksə, Onun əxlaqi və qəlbi həssasiyyətləri bizə

nə qədər sirayət edir? Mərhəmətimiz nə qədər, şəfqətimiz nə qədər, əxlaqımız hansı səviyyədə?.. Dünya ilə axirət arasında seçim qarşısında qalanda "əsas həyat axirət həyatıdır" deyə bilirikmi? Lazım gəldikdə nəfsimizdən fədakarlıq edib din qardaşımızı özümüzə tərcih edə bilirikmi? Yoxsa bütün bu sevgi ifadələrimiz əsilsiz bir iddiadan ibarətdir?..

Zaman Allah Rəsuluna məhəbbətlə bağlılıq xüsusunda halımızı gözdən keçirmə zamanıdır. Nöqsanlarımızı görüb düzəltməyə cəhd etmək vaxtıdır…

**Allah-Təala hər birimizə Əziz Peyğəmbərinin könül iqlimindən pay götürməyi nəsib etsin! Qəlblərimizi Onun sevgisiylə, həyatımızı da Onun sünnəsiylə bəzəsin. Axirətdə şəfaətinə nail eyləsin…**

Amin!..

## HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

### Cəfər Sadiq (q.s) -4-

**Cəfər Sadiq həzrətləri buyurur:**

*"Kim ruzisində çətinlik çəkirsə, istiğfarı artırsın!"*[14]

Bir gün Haqq dostlarından **Həsən Bəsri həzrətləri**nin yanına dörd nəfər gələrək, biri **quraqlıqdan**, biri **kasıbçılıqdan**, biri **tarlasının məhsuldar olmamasından**, digəri isə **övladının olmadığından**[15] söz açaraq ondan yardım istə-

14. Abdülmecid Hani, *el-Hadaikul-Verdiyye*, sf, 161, Rehber Yayıncılık, İstanbul 1986.
15. Yeri gəlmişkən qeyd edək ki, bəzən səbəblərə təvəssül edilərək dua ilə Allaha təvəkkül edilsə də, insan istədiyinə nail olmaya bilər. Məsələn, bəzi ailələrin çox istəməsinə baxmayaraq övladı olmaz. Bunun bir çox hikməti var. Zira Allahdan başqa heç kim qeybi bilməz. Haqqımızda nəyin xeyir, nəyin şər olduğunu Rəbbimiz bizdən daha

dilər. O böyük vəli gələnlərin hər birinə **"istiğfar"**la məşğul olmağı tövsiyə edir.

Yanındakılar təəccüblə belə deyirlər:

"- Əfəndim, bunların hər birinin dərdi və müşkülü başqa-başqadır, amma siz hamısına eyni tövsiyəni etdiniz!".

Həsən Bəsri həzrətləri onlara bu ayeyi-kərimə ilə cavab verir:

**"**(Tövbə edib) **Rəbbinizdən bağışlanmağınızı diləyin. Çünki O,** (tövbə edən bəndəsinin günahlarını) **çox bağışlayandır! O sizə göydən bol yağış göndərər; O sizə mal-dövlət, oğul-uşaq əta**

---

yaxşı bilir. Onun haqqımızdakı təqdiri şübhəsiz ki, bizim istədiklərimizdən daha xeyirlidir.

Həmçinin Allahın qulundan bəzi nemətləri əsirgəməsi o qullarını sevmədiyi mənasına da gəlməz. Necə ki, Həzrət Peyğəmbərin xanımı, ümmətin anası Həzrət Aişə anamızın da uşağı olmamışdı. Allahın bəzi nemətləri qullarından əsirgəməsi onların səbir edib ilahi təqdirə riza göstərərək Haqq qatındakı dərəcələrinin daha da yüksəlməsi və o nemətlərdən daha xeyirli və əbədi olan axirət mükafatlarına nail olmaları üçündür. Ona görə də daim ilahi qədərə səbir, şükür, həmd, riza və təslimiyyət halımızı qorumalıyıq.

**edər. O sizin üçün bağlar-bağçalar yaradar və çaylar axıdar!".** (Nuh, 10-12)[16]

Deməli, Allah-Təala tövbə və istiğfar edən bəndələrini bir çox müşküldən qurtarıb, onlara lütf edər. Haqqın rəhmətini cəlb edib, qəzəbini söndürəcək ən əsas vasitə bəndənin ixlasla Rəbbinə yönələrək Ondan xəta və günahlarının əfvini istəməsidir.

Necə ki, başqa bir ayədə də belə buyurulur:

**"…**(Tövbə edib) **bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!"** (əl-Ənfal, 33)

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Qəzəb bütün şərlərin açarıdır".***[17]

Mömin xeyrə açar, şərə kilid olmalıdır. İkiuclu bıçağa bənzəyən qəzəb isə imandan doğarsa xeyrin, nəfsdən doğarsa şərin açarı olar. Çünki nəfsani qəzəblər ağlı başdan çıxardan çılğınlıq halıdır

16. İbn Həcər, *Fəthul-Bari*, XI, 98; Ayni, *Umdətul-Qari*, Beyrut ts. XXII, 277-278.
17. Qəzali, *Ehya*, III, 166.

və çox vaxt aqibəti fəlakətlə nəticələnir. Əgər mömin qəzəblənəcəksə, Allah rizası üçün, İslam düşmənlərinə və günaha qəzəblənməlidir. Nəfsindən doğan qəzəb hissini isə daim cilovlamağa çalışmalıdır.

**Həzrət Əlinin** ﷺ Allah yolunda vuruşarkən bir kafiri öldürməsi ərəfəsində üzünə tüpürməsi nəticəsində onu öldürməkdən vaz keçməsi hadisəsi bu xüsusda ən gözəl misallardan biridir. İmanın qazandırdığı həssaslıqdan məhrum olan İslam düşməni Həzrət Əlinin bu qeyri-adi hərəkətinə məəttəl qalaraq heyrətlə soruşur:

“- Ey Əli, tam da məni öldürmək üzrə idin, nə üçün əl saxladın? Şiddətli qəzəbin necə oldu ki, bir anda sükunətlə əvəz oldu? Bu ani dəyişikliyin hikməti nədir?”.

Həzrət Əli ﷺ bu cavabı verir:

*“- Mən yalnız Allah yolunda cihad edirəm. Allaha düşmən olanların boynunu Onun rizası üçün vururam və əsla nəfsimi buna şərik etmirəm… Sən üzümə tüpürərək məni təhqir etmək, qəzəbləndirmək və bununla da nəfsimi hərəkətə gətirmək istədin. Əgər*

*mən həmin anda hiddətlənsəydim, səni nəfsimə ram olmaq kimi mənasız bir səbəblə öldürmüş olacaqdım. Halbuki mən qürurumu təmin etmək üçün yox, Allah rizası üçün vuruşuram".*

Məhz bu fəzilətli hərəkət qarşısında həmin düşmən iman ilə şərəflənir.

Allah-Təala ilahi mükafatlarla müjdələdiyi təqva sahibi olan bəndələrinin vəsflərini belə zikr edir:

**"O müttəqilər ki, bolluqda da, qıtlıqda da** (mallarını yoxsullara) **xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər"** (Ali-İmran, 134)

Bu ayeyi-kərimənin həyata tətbiq olunmasına dair yaşanmış fəzilət nümunələrindən biri belədir:

**Cəfər Sadiq həzrətləri**nin bir köləsi vardı. Bir gün o su tökür, həzrət isə əllərini yuyurdu. Birdən su patlarına sıçradı. Cəfər Sadiq həzrətləri hirslə köləyə baxdı. Bu zaman kölə:

"- Əfəndim, Qurani-Kərimdə «وَالْكَاظِمِينَ الْغَيْظَ / **Qəzəblərini udanlar»**,[18] Allahın məğfirəti və Cənnətlə müjdələnirlər",- dedi.

Cəfər Sadiq həzrətləri:

"- Elə isə qəzəbimi uddum!",- dedi.

Kölə ayənin davamını oxudu:

**"–وَالْعَافِينَ عَنِ النَّاسِ: İnsanları əfv edənlər".**

Cəfər Sadiq həzrətləri:

"- Haydı, səni əfv etdim",- dedi.

Kölə ayəni oxumağa davam etdi:

"–وَاللّٰهُ يُحِبُّ الْمُحْسِنِينَ: **Allah yaxşılıq edənləri sevər!".**

Bunun üzərinə Cəfər Sadiq həzrətləri:

"– Gedə bilərsən, sən Allah-Təalanın rizası üçün artıq azadsan. Bu min dinar da sənin olsun!",- buyurdu.[19]

İnsanın şəxsinə qarşı xəta və günah işləndiyi zaman Allah rizası üçün qəzəb

18. Ali-İmran, 134.
19. İbnül-Cövzi, *Bəhrud-Dümu'*, s. 142.

hisslərini boğmaq böyük bir fəzilətdir. Necə ki, hədisi-şərifdə buyurulur:

*"İgid güləşdə rəqibinə qalib gələn deyil. Əsl igid qəzəbləndiyi vaxt qəzəbinə qalib gələndir".* (Buxari, Ədəb, 76; Müslim, Birr, 107, 108)

Allah Rəsulu ﷺ şəxsi məsələlərdə hirsi boğa bilməyin yolunu da belə bəyan etmişdir:

*"Diqqət edin! Qəzəb Adəm oğlunun qəlbindəki bir alovdur. Hirslənən adamın gözlərinin qızardığını, boyun damarlarının şişdiyini görmürsünüzmü? Kim hirslənməyə başladığını hiss edərsə, dərhal otursun, yaxud da yatsın!".* (Tirmizi, Fitən, 26/2191; İbn Macə, Fitən, 18)

*"Sizdən biri hirsləndikdə ayaq üstədirsə, otursun, hirsi soyuyarsa, lap yaxşı, əks təqdirdə uzansın".* (Əbu Davud, Ədəb, 3/4782; Əhməd, V, 152)

**Əbu Vail** belə deyir:

"Bir gün **Urvə bin Muhamməd**in yanına getmişdik. Bir nəfərin naxoş sözlər söyləyərək Urvəni hirsləndirdiyini gördük. Bu zaman Urvə ayağa qalxdı, dəstə-

maz alıb yanımıza gəldi və **Rəsulullahın** ﷺ belə buyurduğunu nəql etdi:

*"Hirs şeytandandır. Şeytan isə oddan yaradılmışdır. Od su ilə söndürülür. Elə isə sizdən biri hirsləndiyi zaman dəstəmaz alsın!".* (Əbu Davud, Ədəb, 3/4784; Əhməd, IV, 226)

Ancaq onu da qeyd etmək lazımdır ki, hirsi boğa bilmək mühüm olduğu kimi, lazım gəldikdə Allah rizası üçün qəzəblənmək də son dərəcə əhəmiyyətlidir. Necə ki, **Rəsulullah** ﷺ öz nəfsi üçün hirslənməz və heç kimlə mübahisəyə girməzdi. Lakin başqasına və ya cəmiyyətə aid bir haqq tapdandığı zaman, xüsusilə də bu halın davam etdiyini gördükdə hirslənər, hətta mübarək alnındakı damar qabarar, yalnız haqq və ədalət öz yerini tapandan sonra sakitləşərdi.

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"(Din) qardaşından sənin haqqında xoşuna gəlməyən bir söz çatanda kədərlənmə! Əgər işin əsli onun dediyi kimidirsə, bu söz axirətdə çəkəcəyin bir cəzaya kəffarə olar. Yəni həmin cəza hələ bu dünyada ikən sənə verilmiş olar. Elə***

***deyilsə də heç nə etmədən bu söz səbəbilə bir savab qazanmış olarsan".***[20]

Cəfər Sadiq hzərətlərinin bu nəsihəti xüsusilə haqsız və əsassız ittihamlara məruz qalan möminlər üçün necə də gözəl təsəllidir. Qəlbin hüzur və müvazinətini qorumaq üçün bu nəsihəti qulaqda sırğa etmək lazımdır.

Bu bir həqiqətdir ki, bir mömin nə qədər yaxşı adam olsa da, mütləq onun da əleyhinə danışanlar olacaq. Heç kim bunun qarşısını ala bilməz.

Necə ki, ilahi qüdrətin insanlıqda təcəlli edən şahəsəri **Həzrət Peyğəmbər** ﷺ kimi ideal və nümunəvi bir insanı da nalayiq sözlərlə anan Əbu Cəhl xarakterli qafil və cahil insanların hər əsrdə yaşaması bu cür ittihamlardan və dedi-qodulardan heç kimin uzaq qalmayacağının açıq-aydın ifadəsidir.

Yenə Cəfər Sadiq həzrətlərinin nəql etdiyinə görə, **Həzrət Musa** عليه السلام bir gün dua edərkən Allah-Təalaya belə yalvarır:

20. Əbu Nuaym, *Hilyə,* III, 198.

"– Ya Rəbbi! Hər kəsin məni xeyirlə yad etməsini istəyirəm".

Haqq-Təala isə:

"- Bu necə ola bilər, Özüm də daxil, heç kimə belə bir şey etmədim",- buyurur.[21]

Yəni insna nə qədər yaxşı da olsa, mütləq onu gözü götürməyənlər, qınayanlar, bəyənməyənlər və dedi-qodusunu edənlər olacaqdır.

Arif mömimlərin ali sifətlərindən biri də insanların onlar haqda bu kimi mənfi dedi-qodusundan inciməməkdir. Çünki edilən bu ittihamlar əgər doğrudursa, **qeybət**dir, yox, tamamən haqsız isə, o zaman **iftira**dır. Bu kimi naxoş rəftara məruz qalan mömin üçün hər iki hal ya günahlarının bağışlanmasına, ya da dərəcəsinin yüksəlməsinə vəsilədir.

İnsanlar dəhşətli qiyamət günündə özləri də çox ehtiyac hiss etsələr də, savablarını dünyada ikən qeybət və dedi-qodusunu etdikləri kəslərə vermək

21. Abdülmecid Hani, *el-Hadaikul-Verdiyyə*, sf, 161-162, Rehber Yayıncılık, İstanbul 1986.

məcburiyyətində qalacaqlar. Əgər borclarını ödəyəcək qədər savabları qalmazsa, dedi-qodusunu etdikləri adamların günah yüklərini öz üzərlərinə alacaqlar.[22]

Qeyd edəcəyimiz hadisə bu həqiqətləri nə gözəl ifadə edir:

Qeybət günahına vərdiş edən bir nəfər ətrafında olan bir Haqq dostunun da qeybətini etməkdən geri qalmırdı. Ona görə də həmin qeybətçini heç kim sevmirdi. Lakin könül təbibi olan Haqq dostu nə vaxt qeybətini edən adam yanına gəlsə, onu təbəssümlə qarşılayar, "Gəl görüm, mənim əziz şərikim",- deyərək iltifat edərdi. Onun bu gözəl rəftarı nəhayət onu insafa gətirdi və:

"Mən orda-burda bu adamın əleyhinə danışıram, o isə həmişə mənə iltifat edir. Daha bundan sonra əleyhinə danışmayacağam",- dedi.

Artıq həmin Allah dostunun qeybətini etmirdi. Lakin hüzuruna gəldikdə

22. Bax. Buxari, Məzalim 10, Riqaq 48; Müslim, Birr 59; Tirmizi, Qiyamət 2; Əhməd, II, 303, 324, 372.

əvvəllər olduğu kimi iltifat görmürdü. Bir gün bunun səbəbini soruşdu:

“Əfəndi həzrətləri, artıq mənə əvvəllər olduğu kimi iltifat etmirsiniz. Əvvəlki sevginizi göstərməməyinizə səbəb nədir?”.

Ona və onun kimi qeybət xəstəliyinə tutulanlara xəbərdarlıq etmək üçün əlinə yaxşı fürsət düşən Haqq dostu təbəssümlə:

“- Əvvəllər səninlə ticarət şərikliyimiz vardı. Artıq həmin şərikliyimiz sona çatdı və ona görə də iltifat da qalmadı”,- dedi. O isə təəccüblə soruşdu:

“- Nə şərikliyi? Mənim elə bir şərikdən xəbərim yoxdur”. Böyük vəli belə izah etdi:

“- Sən orda-burda mənim əleyhimə danışırdın. Mən də qeybətinə qeybətlə cavab vermir və səbir edirdim. Bu səbrimin əvəzində mənim günahlarım sənin dəftərinə, sənin savabların da mənim dəftərimə yazılırdı. Səninlə belə bir ticarət şərikliyimiz vardı. İndi isə sən artıq qeybətimi etmirsən, ona görə şərikliyimiz də sona çatmış sayılır”.

Eşitdikləri qarşısında məəttəl qalan adam:

"- Doğrudan qeybətçinin vəziyyəti belədir?",- deyə soruşduqda o mübarək zat bu misalla sözünə davam etdi:

"- **İmam Şarani** deyir ki, "Əgər mütləq kiminsə qeybətini etməli olsaydım, əvvəlcə ata-anamın qeybətini edərdim. Çünki qeybət edən insan əvvəlcə öz savablarını qeybətini etdiyi adama bağışlamış, vermək üçün savabı qalmamışsa da, onun günahlarını öz üzərinə yükləmiş olar".

Bu sözlərdən sonra dərin düşüncələrə dalan qeybətçinin ağlı başına gəldi və bu hadisədən sonra heç kimin qeybətini etməməyə söz verdi.

Qeybətin nə qədər böyük və çirkin günah olduğu ayeyi-kərimədə belə bildirilir:

**"Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi** (heç bir əsası olmayan zənn) **günahdır.** (Bir-birinizin eybini, sirrini) **arayıb axtarmayın, bir-biri-**

**nizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar** (qeybət də belədir). **Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir!"** (əl-Hucurat, 12)

Ölmüş bir adam necə ki, şərəf və ləyaqətini zədələyəcək pis sözləri eşitməyib, özünü müdafiə etmək iqtidarında deyilsə, qeybəti olunan adam da qiyabında baş verən günahlara cavab verəcək halda deyil. Ona görə də qeybət günahı ayeyi-kərimədə ölmüş qardaşının ətini yemək kimi dəhşətli dərəcədə iyrənc əməl kimi göstərilir.

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Əməlsiz dəvətçi yay olmadan ox atmağa çalışan adama bənzəyir".***[23]

Boş bardaqla ikram olmayacağı kimi söylədikləri ilə yaşadıqları arasında təzad olan, əməli dediklərinə uymayanların verdiyi nəsihət, tövsiyə və təlqinlər də xitab etdikləri kəslərə təsir etməz. Çünki

23. Əbu Nuaym, Hilyə, III, 194-195; Mizzi, Təhzibul-Kamal, V, 89.

sözün təsir bərəkəti söyləyənin ixlas və təqva duyğuları ilə həqiqəti yaşaması nisbətindədir.

Elə ona görə də **Mövlana həzrətləri** belə buyurur:

“Əməli olmayan hikmətli söz borc alınmış bəzəkli patlar kimidir…”

Yenə Mövlana həzrətləri:

“Hal ilə nəsihət edən qal ilə (sözlə) nəsihət verəndən daha xeyirlidir”,- buyuraraq hal və davranışların çox vaxt sözdən daha təsirli olduğunu ifadə etmişdir.

Səhabələrin əksəriyyəti Quran əxlaqını canlı olaraq təmsil edən Rəsulullahın ﷺ gözəl davranışlarına heyran qalaraq hidayətlə şərəflənmişdir. Çünki insan daima şəxsiyyət və xarakterə heyrandır.

Ona görə də təbliğ və irşad fəaliyyəti ilə məşğul olanlar əvvəlcə özləri ilahi əmr və qadağalara dəqiqliklə riayət etməlidirlər. Əks təqdirdə ilahi qəzəbə düçar olmaları qaçınılmazdır.

Allah-Təala Qurani-Kərimdə İsrail oğullarının alimlərini misal göstərərək belə buyurur:

**“Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda, özünüzü unudursunuz? Halbuki özünüz kitab** (Tövrat) **oxuyursunuz. Məgər** (çirkin əməllərinizi) **başa düşmürsünüz?”** (əl-Bəqərə, 44)

**“Tövrata əməl etməyə mükəlləf olduqdan sonra ona əməl etməyənlər belində çoxlu kitab daşıyan** (lakin onların içində nə yazıldığını bilməyən, onlardan faydalanmağı bacarmayan) **ulağa bənzərlər…”** (əl-Cumuə, 5)

**Rəsulullah** ﷺ də belə buyurmuşdur:

*“İsra (Merac) gecəsi dodaqları alovlu qayçılarla kəsilib doğranan bəzi insanların yanından keçdim.*

*“- Ya Cəbrayıl, onlar kimlərdir?”,- deyə soruşdum.*

*“- Onlar ümmətindən olan bir qism xətiblərdir. Allahın Kitabını oxuduqları halda insanlara yaxşılığı əmr edərkən, özlərini unudardılar (yəni söylədikləri ilə özləri əməl etməzdilər). Heç düşünməzdilərmi?!”,- cava-*

*bını verdi."* (Əhməd, III, 231, 120, 180, 239; Beyhəqi, *Şuab,* II, 283)[24]

Bəlkə də bu və buna bənzər həqiqətlərin təsiriylə qəlbi titrəyən səhabələrdən **Ənəs** ﷺ belə nəql edir:

"- Ey Allahın Rəsulu, özümüz əməl etmədiyimiz müddətcə yaxşılığı əmr etməyəkmi, həmçinin özümüz uzaqlaşmadıqca da pislikdən çəkindirməyəkmi?",- deyə soruşduq.

**Rəsulullah** ﷺ (buna kamil mənada müvəffəq ola bilməyin imkansızlığı səbəbiylə) belə buyurdu:

"- Tamamilə əməl etməsəniz də, yaxşılığı əmr edin, tamamilə uzaq durmasanız da, pis əməllərdən çəkindirin!" (Heysəmi, VII, 277).

Yaxşılığı tövsiyə edib, pisliklərdən uzaqlaşdırmağa ilk növbədə özümüzdən və ailəmizdən başlamalıyıq. Bu mənada ilk vəzifəmiz xüsusilə uşaqlarımızı İslami şüurda yetişdirmək olmalıdır. Əks təqdirdə göz bəbəyimiz olan övladları-

24. Həmçinin bax. Buxari, Bədul-Xalq 10, Fitən 17; Müslim, Zöhd 51.

mız qiyamət günü bizdən şikayətçi olacaqlar. Allah-Təala Qurani-Kərimdə:

**"Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlardır!.."** (ət-Təhrim, 6) buyuraraq, əmri bil-məruf və nəhy anil-münkər vəzifəmizə ilk növbədə ən yaxınlarımızdan başlamamıza işarə edir.

Övladlarımızı islami şüurda və dinimizin tələb etdiyi ədəb çərçivəsində yetişdirmək isə onları bir yaz tətilində qələbəlik bir məscidə göndərməklə təmin ediləcək qədər asan deyil. Həmçinin dini təhsili bu qədər bəsit görmək qəlbdəki islami şüurun zəif olduğuna dəlalət edər. Bununla kifayətlənərək vəzifəmizi yerinə yetirdiyimizi zənn etmək yalnız özümüzü aldatmaqdır. Övladlarımızın dünyadakı gələcəyinin yaxşı olması düşüncəsiylə, guya, səviyyəli bir kollecdə oxuda bilmək üçün böyük əmək və sərvət sərf edərkən, universitetə qəbul imtahanlarında ata-analar uşaqlarından daha böyük təlaş və əndişəylə məktəb qapılarında gözləyərkən, əcəba, bu həssasiyyətin neçə faizini onların əbədi gələcəyi olan

axirət üçün göstərirlər?.. Unutmayaq ki, övladlarımızı bu fani dünyadakı ilahi imtahanlara yaxşı hazırlaşdıra bilmək hər birimizin ən mühüm imtahanıdır.

Bu gün ən böyük məsuliyyətimiz övladlarımıza qarşıdır… Çünki bu gün liberal sistemin "qoy etsin, qoy getsin" prinsipi ilə hərəkət edib mənəviyyata zəhər saçan və nəfsaniyyəti qabardan televizorların mənfi təbliğatları, internetin yanlış ünvanları, modaların çığlın təhrikləri və reklamların aldadıcı təlqinləri uşaqlarımızın şəxsiyyətini formalaşdırır. Onların könül dünyasını pərişan edərək, dininə, mədəniyyətinə, tarixinə, hətta ailəsinə qarşı yadlaşdırır.

Özümüzü, övladlarımızı, ailəmizi, qohumlarımızı və cəmiyyətimizi bu həzin aqibətdən qorumaq üçün lazımi tədbirləri almalıyıq.

**Allah-Təala hər birimizə uca dinimizi doğru anlayıb gözəl yaşamağı, bütün hal və hərəkətlərimizlə İslamın nəzakət, zərafət və gülər üzünü sərgiləyə bilməyi nəsib etsin.**

**Amin!..**

## HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

### Cəfər Sadiq (r.a) -5-

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Heç vaxt kimisə əfv etdiyim üçün peşman olmaram! Bu əfvə görə böyük zərər görsəm də, mənim üçün əfv etmək verdiyim bir cəzaya görə min dəfə peşman olmaqdan daha xoşdur".***[25]

Mömin rahatlıqla münasibət qurula bilən insandır. Nəyin bahasına olursa olsun, din qardaşları ilə xoş rəftar etməyə çalışan və asanlıqla münasibət qurulan insandır. Bir anlaşılmazlıq baş verdikdə "mən haqlıyam, sən haqsızsan" kimi mübahisələrə girmədən qardaşının xəta və qüsurlarını örtərək əfv etmə böyüklüyünü göstərə bilən kəsdir. Çünki din qardaşı ilə üç gündən artıq küsülü qalma-

25. İbn Əbdilbərr, *Ədəbul-Mücaləsə*, s. 116.

ğın halal olmadığını,[26] bir il davam edən küsülülüklərinsə qardaşının qanını tökmək qədər ağır günah olduğunu[27] bilən bir möminin başqa cür hərəkət etməsi düşünülməzdir.

Lazım gələrsə Allah rizası üçün nəfsindən fədakarlıq edərək aranı düzəltmək iman və təqvanın gərəyidir. Necə ki, ayeyi-kərimələrdə belə buyurulur:

**"Yaxşılıqla pislik eyni ola bilməz!** (Ey mömin kimsə!) **Sən** (pisliyi) **yaxşılıqla dəf et!** (Qəzəbə səbrlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!) **Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən!".** (əl-Fussilət, 34)

**"...Əgər** (həqiqi) **möminsinizsə, Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin, Allaha və Onun Peyğəmbərinə itaət edin!".** (əl-Ənfal, 1)

**"Həqiqətən, möminlər** (dində) **qardaşdırlar. Buna görə də** (aralarında bir mübahisə düşsə) **iki qardaşınızın ara-**

26. Bax. Əbu Davud, Ədəb, 47/4912.
27. Bax. Əbu Davud, Ədəb, 47/4915.

**sını düzəldin və Allahdan qorxun ki, bəlkə,** (əvvəlki günahlarınız bağışlanıb) **rəhm olunasınız!”.** (əl-Hucurat, 10)

Möminlərin xəlifəsi **Həzrət Əlinin** ﵁ Misir valisi **Malik bin Haris əl-Əştər**ə göndərdiyi *“Əmrnamə”*də yer alan bu tövsiyələr əfv etmək xüsusunda gözlərimiz önündə necə də gözəl könül üfüqü sərgiləyir:

*“Əmrin altında olan və idarə etdiyin xalqa qarşı mərhəmət, məhəbbət və gözəl rəftarla qəlbini bəzə!..*

*Əhali (insan olduqları üçün) xəta edə bilər. Qəsdən və ya səhvən bəzi yanlış addımlar ata bilərlər. Allahdan özün üçün əfv və bağışlanma dilədiyin kimi sən də onları bağışla və gözəl rəftar et.* ***Əsla kimisə bağışladığın üçün peşman olma. Cəzalandırarkən də sevinmə!..”***

Buna rəğmən (hər məsələdə olduğu kimi) əfv və bağışlamada da ölçünü qaçırmamaq lazımdır. Fəzilət olan əfv xətasını anlayıb peşmanlıq çəkənə qarşı göstəriləndir. Xəta, üsyan və zülmdə inad edəni əfv etmək isə fəzilət deyil, əksinə, zəiflik və acizlikdir. Çünki xəta

və səhvində israr edəni bağışlamaq onun həmin xətanı təkrarlamasına fürsət vermək sayılır.

**Mövlana həzrətləri**nin ifadəsi ilə:

*"Ədalət meyvə ağaclarını, zülm isə tikanları sulamaqdır…"*

Həmçinin əfv və bağışlama əfv edəcək insanın şəxsinə qarşı işlənən cinayətlər üçün keçərlidir. Lakin elə günahlar və cinayətlər var ki, müqəddəslərə, milli dəyərlərə və cəmiyyətin hüququna təcavüz mahiyyəti daşıyır. Belə vəziyyətdə əfv etmək yerinə islah etmək üçün cəzaya əl atmaq, ədaləti bərqərar etmək və doğru ilə yanlışı açıq şəkildə ortaya qoymaq lazımdır. Çünki belə bir günahkar əfv olunarsa, daha böyük haqsızlıqlara yol açar və nəticə etibarilə də cəmiyyətə zülm olunar.

Necə ki, **Həzrət Aişə ﵂ anamız Allah Rəsulunun** bu məsələdə necə rəftar etdiyini belə xəbər verir:

*"…Rəsulullah ﷺ şəxsinə qarşı pislik edən adamdan (onu cəzalandırmağa qadir olduğu halda) intiqam almazdı. Lakin Allahın yasaq-*

*larını tapdalayanları Allah adına cəzalandırardı"* (Müslim, Fəzail, 79; Əbu Davud, Ədəb, 4)

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Mömin qardaşın haqqında naxoş bir söz eşitsən, onun üçün birdən yetmişə qədər üzrlü səbəb axtar. Tapmasan, "bəlkə də mənim bilmədiyim və ya anlamadığım bir üzrü var",- de, sonra da mövzunu bağla!".***[28]

İslam əxlaqı başqalarında qüsur axtarmaqdansa, əvvəlcə öz qüsurlarını görüb onları düzəltməyə çalışmağı tələb edir.

Mömin din qardaşına qarşı daim xeyirxah olmalıdır. Yəni onun üçün hər zaman xeyir diləyib yaxşılığını istəməlidir. Nəfsi bir mübahisəyə girərək və ya həsədə qapılaraq özünü haqlı çıxarmaq üçün qardaşının xəta işləməsini gözləmək kimi çirkin xasiyyətdən həssas ölçüdə uzaq olmalıdır.

Necə ki, **Allah Rəsulu** ﷺ:

*"Müsəlman qardaşının başına gələn fəlakəti sevinclə qarşılama! Allah-Təala rəh-*

28. Hani, *əl-Hədaiq,* s. 132.

*mətiylə onu fəlakətdən qurtarıb səni imtahan edər",-* buyurmuşdur (Tirmizi, Qiyamət, 54)

Digər tərəfdən mömin adam bir din qardaşının səhvini gördükdə dərhal sui-zənnə qapılmamalı, tələsərək yanlış bir hökm verməməlidir. Ehtiyatla hərəkət edərək əvvəlcə onun bu hərəkətinin məqbul bir üzrü olub-olmadığına baxmalıdır. Zira ona hüsnü-zənn bəsləmək və xoş gözlə baxmaq İslamın təlqin etdiyi qardaşlıq ədəbindəndir.

Allah-Təala ayeyi-kərimədə buyurur: **"…**(Bir-birinizin eybini, sirrini) **arayıb axtarmayın!.."** (əl-Hucurat, 12). Bununla da möminlərə din qardaşlarının gizli və məhrəm olan xəta, qüsur və eyiblərini araşdırmağı qadağan edir.

Hətta İslam əxlaqına görə, bir möminin yalnız şəxsi ilə əlaqəli və ümuma zərəri toxunmayan eyib və qüsurlarına vaqif olduqda onları örtüb gizlətmək və münasib bir dillə xəbərdarlıq etmək mühüm qardaşlıq vəzifəsidir.

Bu hadisə sözünü etdiyimiz həqiqəti necə də gözəl ifadə edir:

**Həzrət Ömər** ﷺ bir gecə Mədinə küçələrində gəzərək şəhəri təftiş edirdi. Evində mahnı oxuyan bir nəfərin səsini eşitdi. Divardan keçib yanına gələndə həmin adamın yanında bir cariyə və içkli olduğunu gördü. Ona:

“- Ey Allahın düşməni, sən Allaha üsyan edərkən Onun işlədiyin günahı örtəcəyini zənn edirdin?”,- deyə hiddətlə sual verdi.

Həmin adam bu cavabı verdi:

“- Ey möminlərin əmiri, mənə qəzəblənməyə tələsmə! Mən Allaha qarşı bir dəfə üsyan etmişəmsə, sən üç dəfə asi olmusan:

Birincisi, Allah-Təala **“…(Bir-birinizin eybini, sirrini) arayıb axtarmayın!..”** buyurur (əl-Hucurat, 12), sən günahımı araşdırdın.

İkincisi, Allah-Təala **“Evlərinizə arxa tərəfdən girməniz yaxşı iş deyildir”,-** buyurur (əl-Bəqərə, 189), sən divarı aşıb mənə basqın etdin və evin arxasından izinsiz girdin.

Üçüncüsü də odur ki, Allah-Təala **"Ey iman gətirənlər! Başqalarının evlərinə** (sizin olmayan evlərə) **sahiblərindən icazə almadan və onlara salam vermədən girməyin",-** buyurur (ən-Nur, 27), sən isə salam vermədən girdin!".

Həzrət Ömər ﵁:

"- Səni əfv etsəm, bu halını düzəldərsənmi?",- deyə soruşdu.

O:

"- Vallahi bəli, ey möminlərin əmiri! Əgər məni bağışlasan, əsla bir daha belə günah işlərə əl atmaram!",- dedi.

Həzrət Ömər ﵁ da onu əfv etdi və evdən çıxıb getdi.[29]

**Rəsulullah** ﷺ hədisi-şəriflərində belə buyurmuşdur:

*"Kim yoldaşının eyibini örtərsə, Allah da qiyamət günü onun eyibini örtər. Kim müsəlman qardaşının eyibini üzə çıxarsa, Allah da onun eyibini üzə çıxardar. Hətta evinin*

29. Haraiti, *Məkərimul-Əhlaq,* Qahirə: Darul-Afak, 1419, s. 152.

*içində də olsa, onu eyibləri ilə rəzil edər"* (İbn Macə, Hüdud, 5)

*"Kim bir qardaşını (tövbə etdiyi) günahı səbəbilə ayıblayarsa, o günahı işləmədən ölməz"* (Tirmizi, Qiyamət, 53/2505)

Gözəl əxlaqı tamamlamaq üçün göndərilən **Hz. Peyğəmbər** ﷺ heç kimin açığa çıxmayan eyib və qüsurları ilə məşğul olmadığı kimi, bu kimi halların araşdırılmasını da şiddətlə qadağan edərdi. Hətta o Rəhmət Peyğəmbəri heç kimin üzünə eyibini araşdırırmış kimi diqqətlə baxmazdı.

Mömininin də vəzifəsi din qardaşlarına qarşı gözünü və könlünü eyib axtarmaqdan qoruyub əvvəlcə öz daxili dünyasını mənəvi xəstəliklərdən təmizləməklə məşğul olmaqdır.

Onu da yaddan çxarmamaq lazımdır ki, Allahın sifətlərindən biri də **"Səttarul-Uyub"**, yəni eyib və qüsurları gizləyəndir. Ona görə həqiqi bir mömininin də ilahi əxlaqdan maksimum dərəcədə nümunə götürməsi lazımdır.

Ayeyi-kərimələrdə buyurulur:

**“Möminlər arasında** (onları nüfuzdan, hörmətdən salmaq məqsədilə) **pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir…”** (ən-Nur, 19)

**“Allah pis sözün açıq** (ucadan) **deyilməsini sevməz. Yalnız zülm olunmuş şəxslər müstəsnadır. Allah** (hər şeyi) **eşidəndir, biləndir!..”** (ən-Nisa, 148)

Bir din qardaşımızın şəxsinə aid eyib və qüsurunu ifşa etmək onun xətasını daha da sahiblənərək, səhvini müdafiə etməsinə, bununla da tövbə qapısından və halını islah yolundan tamamən uzaqlaşmasına səbəb ola bilər. Ona görə də ən düzgün hərəkət din qardaşımızı təcrid edib xəta və qüsurları ilə baş-başa qoymaqdansa, ona islahedici üslubla yanaşmaqdır. Hikmətli sözlərlə, gözəl nəsihətlərlə və münasib bir dillə xəbərdarlıq etməkdir. Bu, eyni zamanda Xaliqin şəfqət və mərhəmət nəzəri ilə məxluqata baxış tərzinin ali ruhlardakı təzahürüdür.

Çünki kamil bir mömin günahkara deyil, günaha düşməndir. Ona görə də günaha olan nifrətini günahkara sirayət

etdirməz. Əksinə, günahkarı o günahdan qorunmaqdan aciz, yaralı bir quş kimi mərhəmətə möhtac görər. Onu nifrət və həqarətlə təcrid etmək yerinə, alçaltmadan, nəzakətli üslubla xəbərdar edər və irşada çalışar. O, qardaşını düşdüyü günah çuxurundan qurtarıb təmiz həyata qovuşdurmaq üçün ona yardım əlini uzadar. Əfv və təbəssümlə könlünü almağa cəhd edər.

Xəta və günaha sürüklənmiş din qardaşlarımıza necə yaxınlaşmalı olduğumuz xüsusunda **Yezid bin Əsam**ın nəql etdiyi bu hadisə necə də gözəl bir misaldır:

Şam əhalisi arasında güclü-qüvvətli və nüfuzlu bir adam vardı. Hərdən **Həzrət Ömər**in yanına gəlirdi. Bir ara Hz. Ömər ﵁ onu görmədi. Ətrafındakılara:

“- Filankəs nə işlə məşğuldur, uzun zamandır görünmür?”,- dedi.

“- Ey möminlərin əmiri, o içkiyə qurşandı”,- dediler.

Həzrət Ömər katibini çağıraraq:

"- Yaz!",- dedi, "Ömər bin Xəttabdan filankəsə! Salam olsun sənə! Özündən başqa ilah olmayan, günahları bağışlayan, tövbələri qəbul edən, əzabı şiddətli və kərəmi bol olan Allaha həmd edirəm. Ondan başqa heç bir ilah yoxdur. Dönüş Onadır".

Həzrət Ömər ﷺ məktubu yazdırdıqdan sonra yanındakılara:

"- Allaha yönəlməsi və Allahın da tövbəsini qəbul etməsi üçün qardaşınıza dua edin!",- buyurdu.

Həmin adam Həzrət Ömərin məktubunda zikr etdiyi **Günahları bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli, kərəmi böyük olan** (Allah)**..."** (əl-Mumin, 3) ayəsini dəfələrlə oxudu və:

"- Allah məni həm əzabıyla qorxutmuş, həm də günahlarımı bağışlayacağını vəd etmiş",- deyərək ağladı və tövbə etdi.

Həzrət Ömər ﷺ onun tövbə etdiyini öyrəndikdə:

"- Bir qardaşınızın yoldan çıxdığını, günaha düşdüyünü gördükdə onu

düz yola gətirməyə, Allahın əfvindən ümidvar olmasını təmin etməyə çalışın. Allahın ona tövbə qismət etməsi üçün dua edin. Ona bəddua edərək şeytana yardımçı olmayın",- dedi. (İbn Kəsir, *Təfsir*, IV, 76)

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Əvvəli qorxu, sonu üzrxahlıq olan günah insanı Haqqa yaxınlaşdırır. Əvvəli arxayınlıq, sonu lovğalıq olan ibadət də insanı Haqq-Təaladan uzaqlaşdırır. Özündənrazı itaətkar əslində asidir. Üzr istəyən asi də əslində itaətkardır".*** [30]

Şeytan Allahın əmrinə etiraz edib Ona qarşı üsyan etdikdə təkəbbür və ənaniyyətin əsirinə çevrilib xətasında israr etdi və inadkarlığının qurbanı oldu. Beləliklə də Allahın lənətinə düçar oldu.

**Həzrət Adəm** عليه السلام ilə **Həzrət Həvva** anamız isə şeytana uyub Allahın qadağan etdiyi ağacın meyvəsindən dadaraq insan nəslinin ilk günahını işlədilər. Lakin onlar şeytanın etdiyi kimi bəhanələr gətirərək

30. Əttar, *Təzkirə,* s. 55.

günahlarını örtbasdır etmədilər, səmimi qəlblə həqiqəti etiraf etdilər.

“(Adəm və Həvva) **“Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq!” – dedilər.”** (əl-Əraf, 23)

Xətadan dönmə fəziləti sərgiləyib peşmanlıq və utanc içində Allahın rəhmət və məğfirətinə sığındılar. Səmimi göz yaşları ilə etdikləri tövbə-istiğfarları Allah tərəfindən qəbul olunduqdan sonra ilahi lütfə nail oldular. Beləliklə qiyamətə qədər nəsillərindən gələcək insanlara günah çuxuruna düşməkdən qoruna bilmədikləri zaman necə xilas olacaqlarına dair gözəl nümunə oldular.

Nəfs və şeytan kimi iki böyük düşmənlə imtahan aləminə göndərilən Adəm oğlunun (insan olduğu üçün) xətadan və unutqanlıqdan tamamilə uzaq qalması mümkün deyil. Əsas məsələ hər hansı bir günaha sürükləndikdə bağışlayan Rəbbin olduğunu unutmamaq, Onun rəhmətindən ümid kəsmədən günahın

bağışlanması üçün dua etmək və işlənən xətanı düzəltməyə çalışmaqdır.

Günahına peşman olaraq Nasuh tövbə edib səmimi göz yaşları tökən elə günahkarlar var ki, Allahın vəli qullarına çevrilmişlər. Bunun əksinə, özünü cənnətlik görən elə abidlər də var ki, əməllərinə arxayınlıqları Allahın rəhmətinə olan ümidlərini keçəcək nöqtəyə gəldiyi üçün ilahi qəzəbə düçar olmuşlar.

Elə xor görülən günahkarlar var ki, günü gəldikdə tövbə ilə təmizlənmiş və onu xor görənlərdən daha yüksək dərəcələrə çatmışdır. Bunun əksinə, zöhd və təqva üzrə yaşayan elə abidlər də var ki, nəfs və şeytanın haqq kimi görünən tələlərinə düşərək axirətlərini məhv etmişlər… Son nəfəsi imanla vermək xüsusunda peyğəmbərlər və onların müjdələdikləri insanlar xaric heç kimin əlində zəmanəti yoxdur.

**Rəsulullahın** ﷺ xəbər verdiyi bu hadisə necə də ibrətlidir:

*"Bir nəfər:*

*"- Vallah, Allah filankəsi bağışlamayacaq",- deyərək qəti söz söylədi.*

*Allah-Təala isə:*

*"- Filan adamı bağışlamayacağıma and içən kimdir? Mən onu bağışladım, sənin əməlini isə puç etdim!",- buyurdu."* (Müslim, Birr, 137)

Deməli, yalnız Allahın biləcəyi mövzularda danışarkən hədsiz dərəcə diqqətli olmalı, həddi aşan bir söz söyləməkdən uzaq durmalıyıq. Unutmayaq ki, dünyadakı qulluq imtahanını kimin necə bitirəcəyi yalnız Allah-Təalaya məlumdur. Ona görə kamil mömin:

- gözəl halına və əməllərinə baxıb əsla arxayın olmaz,

- aqibətindən əmin olaraq lovğalıq etməz,

- xəta və qüsurlarına görə insanları xor görərək, dolayı yolla özünü yüksək tutacaq hərəkətlər sərgiləməz…

**Rəsulullahın** ﷺ xəbər verdiyi bu hadisə də mövzu ilə bağlı mühüm xəbərdarlıq mahiyyətindədir:

*“İsrail oğulları arasında bir-birinin ziddi olan iki nəfər vardı: biri günahkar idi, digəri isə ibadət əhli. Abid olan digərini günah işləyərkən görər və: “bu əməlindən əl çək”,- deyərdi. Bir gün yenə onu günah işləyərkən gördü və “bu işdən əl çək”,- dedi. Digəri isə:*

*“- Məni Allahla baş-başa qoy. Sən başıma müfəttişsənmi?”,- dedi. Abid adam:*

*“- Vallahi, Allah səni bağışlamaz” və ya “Allah səni cənnətinə qoymaz”,- dedi. Bunun üzərinə Allah hər ikisinin canını aldı. Onlar aləmlərin Rəbbinin hüzuruna gəldilər. Allah-Təala ibadət əhli olana:*

*“- Sən Mənim əlimdəkinə qadirsən?”,- dedi. Sonra günahkara:*

*“- Get rəhmətimlə cənnətə gir”,- buyurdu, digəri üçünsə*

*“- Bunu cəhənnəmə atın”,- deyə əmr etdi”.*

**Əbu Hüreyrə** ﵁ deyir ki:

“(Zavallı adam Allahın qəzəbinə toxunan münasibətsiz) bir söz söylədi və bu söz dünyasını da, axirətini də məhv etdi” (Əbu Davud, Ədəb, 43/4901)

Deməli, kimin necə olacağını və qəlblərdə gizli olanı yalnız Allah bilir. Bizim borcumuz ilk növbədə öz xətalarımızla məşğul olaraq tövbə-istiğfara sarılmaqdır. Bir sözlə, bu fani dünyada minalanmış ərazidə gəzən adamlar kimi hər halımıza diqqət etməliyik.

Onu da unutmayaq ki, özümüzdə olduğunu düşündüyümüz gözəl vəsflərdən daha üstünü heç təxmin etmədiyimiz adamlarda ola bilər. Ona görə də Allahın bəndələrini xəfifə almaq, xor görmək əslində özümüzü kiçildən çirkin bir hərəkətdir.

Bir sözlə möminin Allahın yaratdığı bir bəndəni, hətta heyvanları belə xor görməkdən diqqətlə uzaq durması lazımdır.

Necə ki, **Həzrət Nuh** عليه السلام yaralı bir köpəyə baxmaqdan imtina edərək başını çevirdiyi üçün:

**"- Ey Nuh! Məni eyiblə ittiham etdin? Onu Mən yarattım!"**,- deyə xəbərdarlığa məruz qalmışdı. Yaradandan ötrü heyvanlara belə bu qədər dərin həssaslıqla yanaşmaq lazımdırsa, insanları xor

görüb incitməyin nə qədər böyük xəta olduğu daha asan anlaşılır.

Xülasə, mömin saleh əməllərinə və həyat tərzinin düzgün olmasına baxaraq lovğalanmamalı, özünü xilas olmuş zənn etməməlidir. Əksinə, səhv əməllərindən dərhal əl çəkib, istiğfar halını qorumalıdır.

Allah-Təala ayeyi-kərimədə:

**"Sənə yəqin** (ölüm) **gələnə qədər Rəbbinə qulluq et!"** (əl-Hicr, 99) buyuraraq, son nəfəsimizə qədər xovf və rəca, yəni qorxu və ümid duyğuları arasında qulluq etməmizi istəyir. Hədisi-şərifdə buyurulduğu kimi:

*"Necə yaşasanız elə ölərsiniz, necə ölsəniz, o cür də həşr olunarsınız"* (Münavi, *Feyzul-Qədir*, V, 663)

Bununla yanaşı, bu ümumi həqiqətin bəzi istisnalarının da ola biləcəyini heç vaxt göz ardı etməməliyik. Çünki Quran və Peyğəmbərimiz istiqamət üzrə həyat yaşayıb, cənnətə bir qarış qalmış əbədi səadəti əldən verənləri, bunun müqabilində istiqamətdən uzaq yaşadığı halda,

cəhənnəmə bir qarış qalmış qazananları xəbər verir.

Onu da unutmayaq ki, Allahın rəhməti də, qəzəbi də bəzən kiçik, bəzən orta, bəzənsə böyük bir əməldə təcəlli edə bilər. Ona görə kiçik bir günahdan da böyük həssaslıqla çəkinməliyik. Ən kiçik bir xeyir işi də böyük qənimət bilərək ifa etməyə çalışmalıyıq.

**Allah-Təala qəlblərimizi rizası ilə birləşdirsin. Hər birimizi razı qaldığı əməllərə nail etsin. Lütf və kərəmi ilə aqibətimizi xeyir eyləsin!**

**Amin…**

# HAQQ DOSTLARINDAN HİKMƏTLƏR

## Cəfər Sadiq (q.s) -6-

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Kim nəfsinə qarşı nəfsi üçün mücahidə edərsə, kəramətlərə nail olar. Kim nəfsinə qarşı Allah-Təala üçün mücahidə edərsə, Allaha nail olar".***[31]

Mücahidə nəfsin xoşuna gəlməyən, istəmədiyi bəzi çətinliklərlə tərbiyə edilməsidir. Beləliklə nəfsin həddi aşan istək və ehtiraslarına qarşı dirəniş göstərərək ruhani istedadların inkişafına zəmin hazırlamaqdır.

Mənəvi təkamül səfəri sayılan seyri-sülükdən məqsəd bəzi fövqəladə hallara nail olmaq deyil, "qəlbi-səlim"ə nail olmaq, yəni qəlbi Allahın razı olacağı

31. Fəridəddin Əttar, *Təzkirətul-Övliya*, s. 56.

səviyyəyə gətirməkdir. Əks təqdirdə hindistanlı yoqlar da bəzi pəhriz və təmrinlərlə müəyyən dərəcədə ruhi gücdən istifadə edə bilirlər.

Mənəvi tərbiyədə tətbiq olunan riyazət, mücahidə və bəzi ruhi təmrinlər nəticəsində qəlbdə bəzi kəşf və ilhamlar meydana gələ bilər. Bunlar əsl məqsəd deyil, insanın keçməli olduğu imtahan təcəlliləridir. Bütün bunlar ruhi təkamülü həyata keçirmək üçün üzərinə çıxılacaq pillələrdir.

Həqiqətən nəfsani ehtiraslardan xilas olmadan ruhi inkişafdan söz gedə bilməz. Təkəbbür və eqoizmin kəsavəti ilə lətafət iqliminə addım atmaq imkansızdır. Xam və tənbəl könüllə mənəvi zövqləri dadmaq mümkün deyil. **Həsən Haraqani həzrətləri** belə buyurur:

“Necə ki, namaz və oruc fərzdir, ədası zəruridir, təkəbbür, həsəd, ehtiras (kimi nəfsani arzuları) könüldən silib atmaq da zəruridir”.[32]

32. Fəridəddin Əttar, *Təzkirətul-Övliya*, s. 629.

Arif insanların nəzərində insanın yaradılış qayəsi də **"kəsbi-kamal ilə seyri-camala vüslət"**dir. Yəni mənəvi cəhətdən kamilləşərək Allah-Təalanın camalını müşahidə etmə bəxtiyarlığına nail olmağa can atmaqdır.

Kəşf, kəramət, qeyri-adi təzahür və ilham kimi təcəllilərə həddən artıq əhəmiyyət vermək insanı əsas qayəsindən, yəni Haqqa vüslətdən məhrum edər. Əsas qayəsinin nə olduğunu unudan mənzilinə çatmaz. Bu, eynilə ruziyə bağlı qalıb Rəzzaqı unutmaq qəflətinə bənzəyir. İnsanın səfər zamanı qonaqladığı yerləri öz vətəni zənn etməsi kimidir.

Digər tərəfdən kəşf və kəramət kimi təcəllilərlə qəlbin doyması insanın mənəvi iştah və qabiliyyətinin məhdud və zəif olduğuna işarə edər.

Haqq dostları isə himməti ali olan, yəni mənəvi iştahları güclü olan kəslərdir. O böyük ruhlar Haqqa vüslətdən başqa heç bir təcəlli ilə əsla təsəlli tapmazlar. Buna görə də onlar kəşf və kəramət kimi təcəllilərə nail olsalar da bu cür cazibələrlə tənbəlliyə qapılmazlar.

Əksinə, son nəfəslərinə qədər getdikcə artan cəhdlə qulluğa davam edərlər.

Necə ki, bir çox rəvayətdə[33] peyğəmbərlərdən sonra insanların ən xeyirlisi olduğu bildirilən **Həzrət Əbu Bəkrin** رضي الله عنه da fiziki və zahiri kəramətinə dair bir o qədər rəvayət yoxdur. Onun ən böyük kəraməti Allah Rəsuluna misilsiz sədaqəti, müstəsna təslimiyyət və itaətidir.

Haqq dostları da daim *"Mənə kəramət yox, Kərim lazımdır"* hissi ilə yaşamışlar. Əsl kəramətin də **"Əmr olunduğun kimi istiqamət üzrə ol..."** (Hud, 112) əmrinə riayət edərək Quran və Sünnə istiqamətində yaşamaq olduğunu ifadə etmişlər.

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Əsl zikr Haqqı zikr edərkən masivanı unutmaqdır. Məhz o zaman insan üçün Allah-Təala hər şeydən üstün olur".***[34]

Zikr Allahı unutmamaq və hər vəsilə ilə Onu anmaqdır. Zikrin kamil mənada

33. Bax. Əli əl-Müttəqi, *Kənzul-Ummal,* XI, 549 / 32578; İbn Macə, *Müqəddimə,* 11/106; Əhməd, I, 127, II, 26.
34. Fəridəddin Əttar, *Təzkirətul-Övliya*, s. 56.

yerinə yetirilməsi qəlb və dilin müştərək ahənglə Allahı anmasına bağlıdır. Əks təqdirdə qafil qəlblə edilən zikrin qiymət və əhəmiyyəti azalar. Zikr əsnasında qəlbin masivadan, yəni Allahdan başqa hər şeydən əlaqələri kəsilməlidir. Zikr zamanı qəlb tamamilə zikrin daşıdığı mənanın təfəkkürü ilə titrəməlidir.

Bununla bağlı ayeyi-kərimədə belə buyurulur:

**"Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə** (Onun heybət və əzəmətindən) **ürəkləri qorxudan titrəyər…"** (əl-Ənfal, 2).

Məhz özünü tamamən bu cür Allahın zikrinə təslim edə bilən möminlərə bir çox maddi-mənəvi lütf və ehsanlar bəxş edilər.

Necə ki başqa bir ayədə:

**"Siz Məni zikr edin ki, Mən də sizi zikr edim..."** (əl-Bəqərə, 152) buyurulur.

Qüdsi bir hədisdə də:

*"Allah-Təala buyurur:*

*Mən quluma Mənim haqqımdakı zənninə görə rəftar edərəm. O, Məni zikr etdiyi zaman Mən onunlayam. O, Məni qəlbində zikr edərsə, Mən də onu zikr edərəm. O Məni bir cəmiyyətdə zikr edərsə, Mən də onu həmin cəmiyyətdən daha xeyirli qrupda anaram"* (Buxari, Tövhid, 15)

Şübhəsiz ki, Rəbbimizin bizi anması bizim Onu zikr etməyimizlə müqayisə edilməyəcək dərəcədə daha xeyirlidir. Məhz belə bir xeyrə və Haqqın yaxınlığına nail ola bilmək üçün dil və qəlb ahəngi içində masivaya aid düşüncələri tərk edərək və özünü Allahda fani edərcəsinə zikr etməyə cəhd göstərməliyik.

Digər tərəfdən zikrin nuru zikr edənin halı nisbətində təcəlli edər. Yəni məqbul zikrə nail olmaq üçün halımızı da islah etməliyik. İlk növbədə özümüzü haram və şübhəlilərdən qorumalı, sonra da qəlbimizi məşğul edən fani məhəbbətləri və masivaya aid düşüncələri tərk etməliyik.

Unutmayaq ki, bu dünyada Rəbbimizi nə qədər həqiqi mənada zikr edə bilsək, sabah qiyamət günündə ilahi vüslətə

də həmin nisbətdə nail ola bilərik. Uca Rəbbimiz bir ayeyi-kərimədə belə xəbərdarlıq edir:

**"Allahı unutduqları üçün Allahın da onları özlərinə unutdurduğu** (xeyirlərini başa düşməyən) **kimsələrə bənzəməyin! Onlar** (Allahın itaətindən çıxmış) **fasiqlərdir!"** (əl-Həşr, 19).

**Cəfər Sadiq həzrətləri buyurur:**

**"İşləyərək qazanc əldə edib ehtiyaclarını təmin etmək kimi bir dərdi olmayan kəsdə xeyir yoxdur. Xeyirli insan qazanıb dolanışığını təmin edərək heç kimə möhtac olmaz, qazandıqları ilə borcunu ödəyər və qohum-əqrəbası ilə əlaqə saxlayar".**[35]

İslam əxlaqının ən mühüm düsturlarından biri də **"yar olmaq, bar olmamaq"**dır. Yəni heç kimə yük olmamaq, əksinə, başqalarının yükünü çəkmək və onlara yardım etməkdir.

Necə ki, hədisi-şərifdə də:

35. İbn Şəmsul-Xilafə, *əl-Ədəbun-Nafia,* s. 4.

*"İnsanların ən xeyirlisi onlara faydalı olandır",-* buyurulmuşdur (Beyhəqi, *Şuab,* VI, 117; İbn Həcər, *Mətalib,* I, 264)

Həmçinin Həzrət Peyğəmbər ﷺ bir dəfə:

*"- Sədəqə vermək hər bir müsəlmanın vəzifəsidir",-* buyurmuşdu. Səhabələr:

"- Sədəqə vermək üçün heç nə tapmasa, onda necə?",- deyə soruşdular. Allah Rəsulu ﷺ:

*"- Fəhləlik edər, həm özünə faydası toxunar, həm də sədəqə verər",-* buyurdu. *Səhabələr:*

"- Buna gücü çatmazsa (yaxud iş tapmazsa), onda necə?",- dedilər. Rəsulullah ﷺ:

*"- Darda qalana, ehtiyac sahibinə yardım edər",-* buyurdu. Səhabələr:

"- Buna da gücü çatmazsa?",- deyə soruşdular. Hz. Peyğəmbər ﷺ:

*"- Yaxşı işlər görməyi tövsiyə edər",-* buyurdu. Səhabələr bu dəfə:

"- Bunu da edə bilməsə?", sualını verdilər. Rəsulullah ﷺ:

*"- Pis əməllərdən uzaq durar. Bu da onun üçün bir sədəqədir",-* buyurdu. (Buxari, Zəkat 30, Ədəb 33; Müslim, Zəkat 55)

Yəni Peyğəmbərimiz ﷺ mömininin hər bir halda əlindən gələni əsirgəməyib malıyla, canıyla, bir sözlə, nəyə gücü çatırsa, yaxşılıq etməsini və ya ən azından yaxşı əməllərə vəsilə olmasının lüzumuna işarə etmişdir.

Çünki Allah-Təala:

**"O müttəqilər ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) xərcləyərlər..."** (Ali-İmran, 134) buyurur. Ona görə də Həzrət Peyğəmbər ﷺ əshabına çətin şəraitdə də infaq etməyi təlim etmiş, hətta bir xurmadan başqa heç nəyi olmayanın belə yarım xurma ilə də olsa sədəqə verməsini təşviq etmişdir.

Başqa bir hədisində də:

*"Verən əl alan əldən üstündür",-* buyurmuşdur. (Müslim, Zəkat, 97)

Beləliklə hər bir mömininin infaq əhli olmasını və mümkün mərtəbə **"alan deyil, verən olmağı"** təlqin etmişdir.

Xülasə, uca dinimiz İslam insanları məşru yollarla qazanc əldə etməyə təşviq edir. İslamın beş əsasından ikisi **"həcc"** və **"zəkat"** ibadətləri də dini nöqteyi-nəzərdən varlı sayılan möminlərə fərz qılınmışdır. Bunun bir mənası da "Qəlbinizi dünya ehtiraslarından qoruyaraq məşru yollarla zəngin olun, zəkat verib həccə gedin!",- deməkdir.

Xeyirli bir möminin düsturu işləyib qazanaraq ətrafındakılara da yardımçı olmaqdır. İnsan yaxşılıq və yardım edəcəyi zaman da ən yaxınlarından başlamalıdır.

Bir hədisi-şərifdə buyurulduğu kimi, bir nəfər **Rəsulullahın** ﷺ yanına gələrək:

"- Ey Allahın Rəsulu! Ən xoş rəftar edəcəyim adam kimdir?",- deyə soruşdu. Rəsuli-Əkrəm ﷺ:

*"- Anan, sonra anan, yenə anan, sonra atan, sonra da sənə ən yaxın olan qohumların"*,- buyurdu. (Müslim, Birr, 2)

**Cəfər Sadiq həzrətləri buyurur:**

***"Qohumları ilə əlaqəsini kəsən adamla yoldaşlıq etmə! Çünki mən Allahın kitabının üç yerində belələrinin məlun olduğunu gördüm".***[36]

Qohum-əqrəba ilə əlaqə qurmaq, ziyarət və himayə etmək, yəni "sileyi-rəhm"ə riayət dinimizin çox əhəmiyyət verdiyi əsaslardan biridir. Belə ki, qohum-əqrəba ilə münasibəti kəsmək bir çox ayeyi-kərimə və hədisi-şərifdə ən böyük günahlardan sayılmışdır.[37]

Sileyi-rəhmə riayət etmək birbaşa imanla əlaqəlidir. **Rəsulullah** ﷺ:

*"…Allaha və axirət gününə iman edən kəs qohumlarına yaxşılıq etsin!.."* buyurmuşdur. (Buxari, Ədəb, 85; Müslim, İman, 74, 75)

Həmçinin bu xüsusda həssas ölçü qoyaraq belə xəbərdarlıq etmişdir:

---

36. Əbu Nuaym, *Hilyə,* III, 183-184; İbn Əsakir, *Tarixu Diməşq,* c. 41, s. 409.
37. Bax. ər-Rəd, 25; Muhəmməd, 22-23; ən-Nisa, 1; Əbu Davud, Zəkat, 45/1694; Buxari, Təfsiru Surə 47, Ədəb 13, Tövhid 35; Müslim, Birr, 16.

*"Qohumlarının etdiyi yaxşılığa eynilə qarşılıq verən, onların hüququna riayət etmiş sayılmaz. Qohumlarının haqqına riayət edən kəs özü ilə əlaqəni kəsdikdə belə onlarla yaxşı rəftar edəndir"* (Buxari, Ədəb, 15; Əbu Davud, Zəkat, 45).

*"Hər cümə gecəsi insan oğlunun əməlləri Allaha ərz olunur. Lakin qohumları ilə əlaqəsini kəsən adamın əməlləri qəbul edilməz"* (Əhməd, II, 484).

*"Qohumları ilə əlaqəni kəsən cənnətə girə bilməz"* (Buxari, Ədəb, 11).

Nəticə olaraq qohum-əqrəbanı ziyarət etmək, hal-xətir soruşmaq, sevinc və kədərlərinə şərik olmaq, gəlməsələr də onları ziyarətə getmək böyük iman məsuliyyətidir.

Lakin qohum-əqrəba ilə əlaqə xüsusunda diqqət ediləcək ən mühüm xüsus onların mənəvi halı ilə də maraqlanmaq, əbədi qurtuluşları üçün də yardımçı olmaqdır. Çünki ən böyük yaxşılıq insanın əbədi səadət və əmin-amanlığı üçün edilən yaxşılıqdır.

Bu səbəblə də onları Quran və Sünnə istiqamətinə yönəltmək, xeyirlərə və saleh əməllərə təşviq etmək, səhv hərəkətlərini də münasib dillə düzəltməyə çalışmaq lazımdır. Xüsusilə şər əməllərin yayıldığı zəmanəmizdə Qurani-Kərim təhsilinə və mənəvi tərbiyəyə daha çox əhəmiyyət vermək xüsusunda xəbərdarlıq etmək çox mühüm vəzifədir. Bu hal Allah və Rəsuluna olan məhəbbətimizin də bir nişanəsidir.

**Yoxsul bir adam Cəfər Sadiq həzrətlərindən soruşdu:**

**"- Nə üçün gecə-gündüz dayanmadan işləyirsən?". O da belə cavab verdi:**

***"- Baxıb gördüm ki, heç kim mənim işimi özüm kimi görə bilmir. Mən də öz işimi özüm görməyə qərar verdim və tənbəlliyi üzərimdən atdım. Yaradıldığım gündən bəri ruzim gəlib məni tapır. Ona görə də nə ehtiras sahibiyəm, nə də tamah.***

***Bir gün ölüm vaxtım gələcək və heç kim mənim yerimə ölməyəcək. Ona görə də ölümə hazırlıq görməyə və onu qarşılamağa başladım. (Ürpərdici ölüm hə-***

***qiqətini gözəlləşdirəcək olan saleh əməllər işləməyə yönəldim).***

***Həmçinin insanlarda da bir vəfa görmədim. Ona görə can-dildən Allah-Təalanın vəfasına üstünlük verdim. Bundan başqa hər şeyi tərk etdim (Bütün bunların itib yox olacaq fani kölgələr və boş xəyallar olduğunu dərk etdim və onlara ümid bağlamaqdan vaz keçdim)."***[38]

Ayeyi-kərimələrdə buyurulur:

**"İnsana ancaq öz zəhməti** (səyi, çalışması, əməli) **qalar!"** (ən-Nəcm, 39)

**"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər). Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir…"** (əl-Bəqərə, 286)

Deməli, axirət nöqteyi-nəzərindən bir insanın özünə verəcəyi fayda və zərəri bütün dünya bir yerə toplaşsa da verə bilməz. Haqqın əmrlərinə üsyan edərək özünə zülm edəni -Allah istəmədikcə- heç kim əzabdan qurtara bilməz. İman və saleh əməllərdən uzaq qalaraq əbədi

38. Fəridəddin Əttar, *İlahinamə,* İstanbul 2010, s. 121.

qurtuluş yolunda özünə faydası olmayana heç kimin xeyri toxunmaz.

Bu baxımdan fanilərə güvənərək, yəni onlardan vəfa və mədəd umaraq Baqi olan Allahı unutmaqdan və Haqqın əmrlərinə biganə qalmaqdan daha həzin nəticə ola bilməz.

Unutmamaq lazımdır ki, bütün fanilər Allahın murad etməsi ilə var olmuş və həmçinin Onun istəyi ilə varlıqlarını sürdürürlər. Hər kəs və hər şey Ona möhtacdır. Elə isə Baqi olan Allahı unudub fanilərdən mədəd ummaq, onlardan vəfa gözləmək nəfsə aldanmaqdır.

Saleh əməllər işləmədən *"filankəsin ətəyindən yapışsam, o məni xilas edər"* kimi xəyal quranlar yalnız özlərini aldadırlar. Çünki heç kim başqasının yerinə ölmədiyi kimi axirətdə də heç kim başqasının yerinə hesab verməyəcəkdir.

Ayeyi-kərimədə buyurulur:

**"Heç bir günahkar başqasının günahını daşımaz. Günah yükü ağır olan kimsə yükünü daşımaq üçün** (başqa birisini köməyə) **çağırsa və** (çağırılan adam

onun) **yaxın qohumu olsa belə, o yükdən bir şey daşınmaz... "** (əl-Fatir, 18)

Bir sözlə, hər kəsin öz dərdini çəkəcəyi məhşər günündə ilahi rəhmətə və Rəsulullahın şəfaətinə nail ola bilmək üçün bu gün tövbə, istiğfar, ibadət və saleh əməllərə sarılmaq mövsümündəyik. Bizi gözləyən qəbir, qiyamət, məhşər, hesab, Sirat kimi çətin və məşəqqətli sınaqlar üçün bugündən tədarük görməliyik.

Bu hadisə necə də ibrətlidir.

Böyük müctəhid Əhməd bin Hənbəl həzrətləri Bağdadda bazardan qayıdarkən onu əlində çanta ilə görən bir nəfər qaçaraq gəlib çantasını götürmək istəyir. Həzrət çantasını vermək istəmədikdə həmin adam:

"- Böyüklərimizə xidmət bizim vəzifəmizdir",- deyərək israr edir. Əhməd bin Hənbəl həzrətləri isə ona bu hikmətli cavabı verir:

"- Biz özümüzü çantası daşınacaq böyüklərdən saysaq, bu təkəbbür olar, kiçiklərdən biri olduğumuza dəlalət

edər. Ona görə də bizi böyüklərdən bilmək sizə savab qazandırsa da, bizi qəflətə sürükləyər. Yaxşısı budur, özümü çantası daşınacaq böyüklərdən saymayıb yükümü özüm daşıyım. Çünki **məhşər günündə də hər kəs öz yükünü daşıyacaq və heç kim başqasının yükünü özünə yük etməyəcək**”.

Bu baxımdan hər birimiz ömür sərmayəmizi saleh əməllərlə dəyərləndirmək üçün bu gün ciddi çalışmalıyıq. Unutmayaq ki, ilahi imtahan dünyasındakı bu fani həyat neməti bizə bir dəfə yaşamaq üçün verildi. Əcəlimiz gəldikdən sonra artıq nə təxirə salına, nə də təkrar edilə bilər. Səhvlərimizi düzəltmək də qeyri-mümkün olacaq...

Allah-Təala ömür sərmayəsini qəflətlə puç edənlərin halından bir mənzərəni belə bəyan edir:

**“Onlar orada fəryad edib deyəcəklər: “Ey Rəbbimiz! Bizi buradan çıxart ki, saleh əməllər edək. O əməlləri yox ki** (dünyada) **edirik!”** (Onlara belə deyəcəyik: ) **“Məgər orada sizə öyüd-nəsihət qəbul edəcək kimsənin öyüd-nəsihət**

**qəbul edə biləcəyi** (düşünəcək kimsənin düşünəcəyi) **qədər ömür vermədikmi?! Hələ sizə** (Allahın əzabı ilə) **qorxudan peyğəmbər də gəlmişdi. Dadın** (cəhənnəm əzabını)**! Zalımların imdadına çatan olmaz!"** (əl-Fatir, 37)

Elə isə var-dövlətin, övlad və dostların fayda verməyəcəyi gün gəlməmiş, bu gün əlimizdə fürsət var ikən bizi "qəlbi-səlim"ə nail edəcək saleh əməllərə can atmaq məcburiyyətindəyik.

Ayeyi-kərimələrdə belə buyurulur:

**"Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabah üçün nə etdiyinə** (axirət üçün özünə nə hazırladığına) **nəzər salsın..."** (əl-Həşr, 18).

**"**İman gətirən bəndələrimə de: "(Vaxtlı-vaxtında, lazımınca) namaz qılsınlar, heç bir alış-verişin və dostluğun mümkün olmayacağı (günahların bağışlanması üçün heç kəsdən fidyə alınmayacağı, dostluq xatirinə heç bir güzəşt edilməyəcəyi) gün (qiyamət günü) gəlməzdən əvvəl onlara verdiyimiz ruzidən (kasıblara, ehtiyacı olanlara) gizli və aşkar xərcləsinlər**"** (İbrahim, 31).

**"Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin mümkün olmayacağı gün** (qiyamət günü) **gəlməmişdən əvvəl sizə verdiyimiz ruzidən paylayın!.."** (əl-Bəqərə, 254)

Unutmayaq ki, vəfasını görəcəyimiz dünya malı indidən infaq edərək axirətə göndərdiklərimizdir. Vəfasını görəcəyimiz övlad Allah yolunda yetişdirdiyimiz, bizim üçün arxamızdan dua edən, xeyir işlər görərək sədəqeyi-cariyə olacaq övladdır. Vəfasını görəcəyimiz dostlar da Allah üçün sevdiyimiz, çətin günlərdə qardaş olduğumuz dostlardır.

Xeyrə, yoxsa şərə xərcləyəcəkləri bilinməyən varislərin əlinə keçəcək var-dövlət isə hesabı veriləcək ağır axirət məsuliyyətindən başqa bir şey deyil.

Şeyx Sədi bu həqiqətlərdən ilham alaraq belə deyir:

*"Axirət tədarükünü həyatda ikən özün gör! Çünki sən öləndən sonra qohum-əqrəban mala həris olar, sənin arzu etdiyin kimi xeyir işlərə xərcləməyə bilərlər.*

İztirab çəkməmək istəyirsənsə, qəbirdə iztirab çəkənləri xatırla! Bu gün xəzinə əlində ikən lazım olan yerlərə özün infaq et, sabaha saxlama! Çünki sabah açar əlindən çıxmış ola bilər. Tədarükünü bu gün özün gör. Öləndən sonra qohumlarının və dostlarının sənə kifayət qədər şəfqət göstərəcəyini umma!

*Obiri dünyaya tədarükünü özü görən kəs böyük nemətə nail olmuş sayılır. Məni düşünərək belimi ancaq öz dırnağım qaşıyar, başqası qaşımaz.*

*Nə qədər sərvətin varsa, ovcunun ortasına qoy, veriləcək yerlərə ver! Əgər bu dünyada xərcləməsən, sabah peşman olub dişinlə əlinin arxasını dişləyərsən".*

Hikmət əhli bu həqiqəti izah mahiyyətində belə deyiblər:

"İnsan öldüyü zaman malı ilə bağlı iki müsibətlə qarşılaşır. Hansı ki, daha əvvəl bunlar kimisini görməmişdir:

Birincisi, bütün malının əlindən alınmasıdır. Digəri isə, bütün malının əlindən çıxmasına baxmayaraq hamısından hesaba çəkilməsidir".

Yenə Şeyx Sədi nəsihətlərinə davam edərək belə buyurur:

"Qapına qərib bir adam gələrsə, əliboş göndərmə. Allah göstərməsin, bəlkə bir gün sən də həmin vəziyyətə düşüb qapıları gəzərsən. Ürəyi yaralı olanların halını soruş, onlara bax. Bəlkə bir gün sən də həmin vəziyyətə düşərsən. Madam ki, nə isə istəmək üçün heç kimin qapısını döymürsən, buna şükür etmək üçün qapına gələn yoxsulu qovma, qaşqabağını tökmə, onu təbəssümlə qarşıla...".

Xülasə, axirət sıxıntılarından xilas olmağın ən gözəl yollarından biri məzlum və möhtac vəziyyətdəki din qardaşlarımızın dərdlərinə çarə axtarmaqdır. Allahın bizi onlardan məsul tutduğunu unutmamaqdır.

Bu xüsusda **mühacir** və ənsar qardaşlığı bizim üçün gözəl nümunədir. Din qardaşlığımızı onların halı ilə ölçüb-biçməliyik. Fikirləşməliyik ki, bu gün bizə pənah gətirən din qardaşlarımıza ürəyimizi nə qədər açırıq, onların dərdlərinə nə qədər şərik oluruq?

Mərhəmət və şəfqətimizin hansı səviyyədə olduğunu tez-tez götür-qoy etməliyik. Haqq-Təalanın məhəbbət və rizasını cəlb etmək üçün saysız-hesabsız fürsətlərlə qarşılaşdığımız ömür sərmayəmizi saleh əməllərlə dəyərləndirməliyik. Onu boş xəyalların kölgəsində puç etməkdən çəkinməliyik.

**Allah-Təala qəlblərimizə dinə sarılma eşqi lütf etsin. Niyyətlərimizi rizası ilə birləşdirsin. Hər birimizə müsəlman kimi yaşayıb müsəlman olaraq can verə bilməyi, sevdiyi və razı olduğu bəndələri ilə həşr olunmağı qismət etsin.**

**Amin!..**

## Mündəricat

Haqq Dostlarından Hikmətlər
Cəfər Sadiq (q.s) -1- ............................ 5

Haqq Dostlarından Hikmətlər
Cəfər Sadiq (q.s) -2- ........................... 25

Haqq Dostlarından Hikmətlər
Cəfər Sadiq q.s -3- ............................. 47

Haqq Dostlarından Hikmətlər
Cəfər Sadiq (q.s) -4- .......................... 67

Haqq Dostlarından Hikmətlər
Cəfər Sadiq (r.a) -5- ......................... 87

Haqq Dostlarından Hikmətlər
Cəfər Sadiq (q.s) -6- ......................... 107